

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 mart 2026-cı il, çərşənbə
№ 050 (7117)
Qiyməti 60 qəpik


# Qlobal Bakı Forumu




## İlham Əliyevin liderliyi ilə Azərbaycan qlobal dialoq və təhlükəsizlik platformasına çevrilib

Bax səh. 2

## Milli Məclisin iclasında... Novruz və Ramazan bayramları münasibətilə Prezident və Birinci vitse-prezidentə təbrik ünvanlanıb

Bax səh. 2

## Cənubi Qafqaz üçün gələcək - sabit qonşuluq və tərəfdaşlıq...

XX əsrlə XXI əsrin qovşağında, yəni ötən əsrin son 10 ilində dünyada yeni şəkilləndirmə, yeni nizam, yeni inkişaf predmetləri meydana çıxırdı. Uzun illər qəti qırmızı xətt ilə ayrılan qütbləşmə arasındakı "tikanlı məftillər" aradan qalxırdı. Artıq qlobal dünyada yeni sistem formalaşırdı. Belə ki:

- Kontinental inkişaf prosesi yerini regional inkişaf predmetlərinə verirdi - başqa sözlə, qitə maraqları bölgə maraqları ilə əvəz olunurdu;
- Təhlükəsizlik indeksinin parametrləri dəyişirdi - başqa sözlə, qütblərarası siyasi təhlükəsizlik meyarları yerini iqtisadi-ticari təhlükəsizlik proyeksiyasına tapşırırdı;
- İqtisadi təmərküzləşmənin coğrafiyası genişlənirdi - başqa sözlə, dünyada yeni bazar sistemi oturuşurdu ki, bu da "ikili qütb iqtisadi məkanı" anlayışını istisna edirdi.

Bir sözlə, həmin dövr yeni siyasi münasibətlər sisteminin, yeni iqtisadi əlaqələndirmə formatının, yeni əməkdaşlıq platformalarının qurulduğu bir zaman idi. Təxminən 200 illik bir dövrdə işğal altında olan, amma strateji əhəmiyyəti heç bir vaxt gözardı edilməyən Cənubi Qafqaz məhz belə bir zamanda arzuolunmaz konfrantasiyaya cəlb edildi. Ermənistanın işğalçı siyasəti ilk növbədə ümumilikdə Cənubi Qafqazın inkişaf trayektoriyasının qarşısını...

Bax səh. 3

## Türkün qəhrəmanlıq dastanı - Çanaqqala savaşı



Bax səh. 5

## Kredit tərəfdaşı və aparıcı səhmdar...

Bax səh. 3

## Neftin qiyməti idarəolunmaz həddə çatır

Bax səh. 4

## 17 il öncə, bu gün...

Bax səh. 5

## "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsi həlledici mərhələyə daxil olur

Qazaxıstan parlamenti ötən həftənin sonunda Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "Yaşıl enerji"nin istehsalı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişini ratifikasiya edib. Sənəd Mərkəzi Asiya ölkələrini Xəzər dənizi vasitəsilə Avropa ilə birləşdirəcək "Yaşıl enerji dəhlizi"nin yaradılmasını nəzərdə tutur. Saziş 2024-cü il noyabrın 13-də Bakıda keçirilən COP29 çərçivəsində üç ölkənin dövlət başçıları tərəfindən imzalanıb. Sənəd bərpa olunan enerji mənbələrinin potensialından səmərəli istifadəni, ekoloji cəhətdən təmiz elektrik enerjisinin ticarətini, habelə "yaşıl enerji", ammonyak və hidrogenin Avropa bazarlarına ixracını hədəfləyir.

Qazaxıstan Energetika Nazirliyinin məlumatına əsasən, layihənin əsas elementi Xəzər dənizinin dibi ilə yüksək gərginlikli sabit cərəyan kabelinin çəkilməsidir. Bu kabel vasitəsilə Qazaxıstan və Özbəkistanda istehsal olunan təmiz elektrik enerjisi Azərbaycana, oradan isə Qara dəniz enerji layihəsi vasitəsilə Avropaya ötürüləcək. Layihənin texniki-iqtisadi əsaslandırmasını İtaliyanın "CESI" beynəlxalq konsaltinq şirkəti hazırlayır. TİƏ-nin hazırlanmasının dəyəri təxminən 1 milyon avro təşkil edir və beynəlxalq maliyyə institutlarının qrant vəsaitləri hesabına maliyyələşdirilir.

Qeyd edək ki, 2025-ci il iyulun 1-də...

Bax səh. 4

## Hörmüz boğazında dəniz koalisiyası mümkün olacaqmı?



Bax səh. 6

## "Drujba" açılmasa...




Bax səh. 7

# Qlobal Bakı Forumu

## İlham Əliyevin liderliyi ilə Azərbaycan qlobal dialoq və təhlükəsizlik platformasına çevrilib

Müasir beynəlxalq münasibətlər sistemində qlobal təhlükəsizlik, enerji sabitliyi, nəqliyyat bağlantıları və beynəlxalq hüquqa hörmət kimi məsələlər dünya dövlətlərinin gündəliyində əsas yer tutur. XXI əsrin mürəkkəb geosiyasi reallıqları göstərir ki, qlobal çağırışların həlli yalnız ayrı-ayrı dövlətlərin səyləri ilə deyil, geniş beynəlxalq dialoq, çoxtərəfli əməkdaşlıq və strateji tərəfdaşlıq mexanizmləri vasitəsilə mümkündür. Bu baxımdan son illərdə Azərbaycan beynəlxalq dialoq platformalarının yaradılması və qlobal müzakirələrin təşkili sahəsində mühüm təşəbbüskar dövlət kimi çıxış edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və praqmatik xarici siyasət kursu nəticəsində Bakı beynəlxalq diplomatiyanın mühüm mərkəzlərindən birinə çevrilib. Bu siyasətin bariz nümunələrindən biri də artıq nüfuzlu beynəlxalq platformaya çevrilmiş Qlobal Bakı Forumudur. Azərbaycan Prezidentinin himayəsi altında keçirilən bu Forum təkcə region üçün deyil, bütövlükdə qlobal siyasi müzakirələr üçün mühüm platforma rolunu oynayır.

Martın 12-də Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən XIII Qlobal Bakı Forumu bir daha göstərdi ki, Azərbaycan artıq beynəlxalq dialoqun və qlobal problemlərin müzakirəsinin aparıldığı mühüm siyasi platformalardan birinə çevrilib. "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunan bu Forumda dünyanın müxtəlif regionlarından tanınmış siyasi xadimlər, o cümlədən fəaliyyət göstərən və sabiq prezidentlər, baş nazirlər, beynəlxalq təşkilatların rəhbərləri, diplomatlar, alimlər və ekspertlər iştirak ediblər. Bu fakt Forumun beynəlxalq nüfuzunun nə qədər yüksək olduğunu və Azərbaycanın qlobal siyasi proseslərdə oynadığı rolun getdikcə artdığını göstərir.

### Prezident İlham Əliyevin liderliyi və Azərbaycanın qlobal dialoq təşəbbüsü




XIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir dünyada təhlükəsizlik, sabitlik və beynəlxalq əməkdaşlıq məsələlərinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. İlham Əliyevin çıxışı müasir beynəlxalq münasibətlər sistemində baş verən proseslərin dərin siyasi və geosiyasi təhlili ilə diqqət çəkib. Prezident uzun illərdir beynəlxalq platformalarda sülh, təhlükəsizlik və əməkdaşlıq prinsiplərinin təşviq olunması istiqamətində ardıcıl siyasət həyata keçirir. Onun təşəbbüsü ilə təşkil olunan Qlobal Bakı Forumu artıq beynəlxalq ekspertlər tərəfindən Davos Forumu və Münhen Təhlükəsizlik Konfransı kimi nüfuzlu tədbirlərlə müqayisə olunan platformalardan biri hesab edilir.

Forumun təşkilində mühüm rol oynayan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi də Prezident İlham Əliyevin dəstəyi ilə qlobal səviyyədə nüfuz qazanmış beynəlxalq təşkilatlardan birinə çevrilib. Mərkəzin həmsədrlərindən olan İsmail Serageldin Forumun açılış mərasimində çıxış edərək qeyd edib ki, müasir beynəlxalq sistem ciddi dəyişikliklər, sınaqlarla üzləşir və bu kimi platformalar gələcək qlobal əməkdaşlıq modelinin formalaşdırılması üçün mühüm əhəmiyyət daşıyır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin digər həmsədri, Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqa da çıxışında Azərbaycanın bu təşəbbüsünün qlobal dialoq üçün mühüm platforma yaratdığını vurğulayıb. Onun sözlərinə görə, Qlobal Bakı Forumunun ideyasının formalaşması və həyata keçirilməsi məhz İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə mümkün olub. Bu fakt bir daha göstərir ki, Prezident İlham Əliyev yalnız regional lider deyil, həm də qlobal miqyasda dialoq və əməkdaşlığın təşviq olunmasına mühüm töhfə verən siyasi xadim kimi qəbul olunur.




### Təhlükəsizlik və sülh siyasəti: Azərbaycanın təcrübəsi

Prezidentin çıxışında xüsusi diqqət yetirilən əsas mövzulardan biri beynəlxalq təhlükəsizlik və regional sabitlik məsələləri olub. Müasir dünyada artan geosiyasi gərginliklər, regional münaqişələr və beynəlxalq hüququn pozulması halları qlobal təhlükəsizlik sistemini ciddi şəkildə sarsıdır. Azərbaycan bu baxımdan özünəməxsus təcrübəyə malik ölkədir. Uzun illər işğal şəraitində yaşamış Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə beynəlxalq hüququn əsas prinsiplərini təmin edib. İlham Əliyev çıxışında vurğulayıb ki, Azərbaycan əvvəlcə hərbi-siyasi yollarla ərazi bütövlüyünü təmin etmiş, sonra isə regionda sülhün bərqərar olunması üçün siyasi təşəbbüslərlə çıxış etmişdir.

Bu siyasətin nəticəsi olaraq regionda yeni geosiyasi reallıq formalaşmış və Azərbaycanla Ermənistan arasında sülh prosesinin başlanması mümkün olmuşdur. Prezident İlham Əliyevin vurğuladığı kimi, sülhə nail olmaq yalnız siyasi iradə və qarşılıqlı anlayış sayəsində mümkündür. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi siyasət beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir.

### Nəqliyyat və qlobal bağlantı: Azərbaycanın strateji mövqeyi

Prezident İlham Əliyevin çıxışında xüsusi yer tutan digər mühüm mövzu nəqliyyat və logistika infrastrukturu oldu. Müasir qlobal iqtisadi sistemdə nəqliyyat dəhlizləri və logistika marşrutları dövlətlərin geoiqtisadi rolunu müəyyən edən əsas amillərdən biridir. Azərbaycan bu sahədə mühüm nailiyyətlər əldə edib. Ölkə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından biridir. Azərbaycanın həyata keçirdiyi infrastruktur layihələri nəticəsində ölkə Avrasiyanın mühüm logistika mərkəzlərindən birinə çevrilib. Bu layihələr yalnız iqtisadi baxımdan deyil, həm də geosiyasi baxımdan böyük əhəmiyyət daşıyır. Azərbaycanın təşəbbüsüylə həyata keçirilən nəqliyyat layihələri Avropa ilə Asiya arasında iqtisadi əlaqələrin genişlənməsinə mühüm töhfə verir.

XIII Qlobal Bakı Forumu bir daha göstərdi ki, Azərbaycan artıq beynəlxalq dialoq və qlobal əməkdaşlıq platformalarının təşəbbüskarı və təşkilatçısı kimi çıxış edir. Prezident İlham Əliyevin uzaqgörən və strateji liderliyi sayəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqe qazanıb. Qlobal Bakı Forumu yalnız siyasi müzakirələrin aparıldığı tədbir deyil, eyni zamanda qlobal problemlərin həlli üçün ideyaların və təşəbbüslərin formalaşdırıldığı mühüm platformadır. Bu platformanın Bakıda keçirilməsi Azərbaycanın qlobal diplomatiyada oynadığı rolun artmasının bariz göstəricisidir.

İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan bu gün qlobal enerji təhlükəsizliyinin təmin edilməsində, beynəlxalq nəqliyyat bağlantılarının inkişafında və regional sabitliyin qorunmasında mühüm rol oynayan dövlətlərdən biridir. Azərbaycanın təşəbbüsü ilə təşkil olunan Qlobal Bakı Forumu isə dünya dövlətləri arasında dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edən mühüm beynəlxalq platforma kimi öz mövqeyini daha da möhkəmləndirməkdədir.

*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

### Enerji təhlükəsizliyi və Azərbaycanın qlobal enerji siyasəti

İlham Əliyevin çıxışında toxunulan mühüm məsələlərdən biri də enerji təhlükəsizliyi olub. Müasir dünyada enerji təhlükəsizliyi artıq təkcə iqtisadi məsələ deyil, dövlətlərin milli təhlükəsizlik strategiyasının əsas elementlərindən biridir. Azərbaycan bu sahədə mühüm qlobal aktor kimi çıxış edir. Ölkə həm neft, həm təbii qaz, həm də elektrik enerjisi istehsalı və ixracı sahəsində geniş imkanlara malikdir. Azərbaycan qazının Avropa bazarına ixracı qlobal enerji bazarında mühüm rol oynayır və bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyinə ciddi töhfə verir. Son illərdə Azərbaycanın enerji siyasəti daha da genişlənib və yeni istiqamətləri əhatə etməyə başlayıb. Ölkə yalnız enerji istehsalçısı kimi yox, enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş kimi də tanınır.

# Milli Məclisin iclasında...

## Novruz və Ramazan bayramları münasibətilə Prezident və Birinci vitse-prezidentə təbrik ünvanlanıb

**Martın 17-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi barədə məlumat verib. Gündəliyə 9 qanun layihəsinin müzakirəsi daxil edilib. Millət vəkilləri cari məsələlərlə bağlı çıxış etdikdən sonra gündəlikdəki qanun layihələri müzakirə edilib. Əvvəlcə, "2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol"u qəbul olunub. Sənəd 2023-cü il oktyabrın 13-də Bişkek şəhərində imzalanıb. Sonra "Yol hərəkəti haqqında" qanuna təklif edilən dəyişikliklər qəbul olunub. Dəyişikliklərə əsasən, dayanma və ya durma qaydalarının, parklanma qaydalarının pozulmasına görə İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən inzibati xəta haqqında qərarın surətinin nəqliyyat vasitəsinin ön şüşəsinə qoyulması tələbi aradan qaldırılır. Qeyd olunub ki, bu sənədlərin çatdırılması real vaxt rejimində həyata keçirildiyi üçün kağız formatın aradan qalxması zərurətindən yaranıb.**

### Qadın hərbçilərlə bağlı qanunvericiliyə dəyişiklik edilir

Qeyd edək ki, parlament tərəfindən müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən qadınlarla bağlanan ilkin bağlaşma müddəti 3 ildən 6 ayadək azaldılır. Bu, iclasda üçüncü oxunuşda qəbul olunan "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna təklif olunan dəyişiklikdə öz əksini tapıb. Qeyd edilib ki, praktikada kişi cinsli vətəndaşlar müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmazdan əvvəl müddətli həqiqi hərbi xidmət keçdiklərinə görə hərbi xidmətə uyğunlaşma mərhələsini artıq başa vurmuş olurlar. Qadınlar isə müddətli həqiqi hərbi xidmət keçmədən birbaşa müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edildiklərinə görə ilkin mərhələdə hərbi xidmət şəraitinə uyğunlaşmada çətinliklərlə üzləşirlər. Qadınlarla dərhal 3 illik ilkin bağlaşmanın bağlanması onların uyğunlaşma dövrünü keçmədən uzunmüddətli öhdəlik götürməsinə səbəb olur ki, bu da sonradan əsasən ailə vəziyyəti və digər obyektiv səbəblərlə hərbi xidmətdən vaxtından əvvəl ehtiyata buraxılmaları ilə nəticələnir və kadr sabitliyinə mənfi təsir göstərir.

Cinayət Məcəlləsinə təklif olunan dəyişikliklərə görə isə, dövlətə məxsus olan hüquqi şəxslərin vəsaitindən təyinatı üzrə istifadə etməməyə görə cəzalar müəyyənləşir. Belə ki, Cinayət Məcəlləsinin 308-1-ci maddəsində (Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə) cinayətin predmeti olan vəsaitin əhatə dairəsi genişləndirilərək dövlətə məxsus olan hüquqi şəxslərin vəsaiti də maddənin təsir dairəsinə salınır. Maddənin hazırda qüvvədə olan sanksiyasında cərimənin məbləği konkret aralıqda (doqquz min manatdan on üç min manatadək) nəzərdə tutulduğu halda, layihəyə əsasən cərimə "cinayətin predmetinin dəyərinin (təyinatından kənar istifadə olunan vəsaitin) yüz faizi miqdarında" müəyyən edilir. Bu dəyişikliklə cərimənin miqdarı birbaşa vurulan zərərlə əlaqələndirilir. Eyni zamanda, külli miqdarda törədilən əməllərə görə alternativ cəza növü kimi üç ilədək müddətə azadlığın məhdudlaşdırılması da əlavə edilir.

İnzibatı Xətalar Məcəlləsinın 410-cu maddəsində də bununla əlaqədar dəyişikliklər nəzərdə tutulur. Belə ki, "dövlətə məxsus olan hüquqi şəxslər" maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydalarının pozulmasına görə məsuliyyət daşıyan subyektlər sırasına əlavə edilir və hazırda cərimənin məbləği dəymiş ziyanın həcmindən asılı olaraq dörd yüz manatdan səkkiz min manatadək olduğu halda, layihəyə əsasən bütün hallarda cərimə "inzibati xətanın bilavasitə obyekti olmuş vəsaitin yüz faizi məbləğində" müəyyən ediləcək. Buna uyğun olaraq, İnzibati Xətalar Məcəlləsinin 410.2 və 410.3-cü maddələri ləğv edilir.

### "Yerin təki haqqında" qanuna dəyişikliklər qəbul olunub




Deputatlar "Yerin təki haqqında" qanuna dəyişiklikləri isə üçüncü oxunuşda qəbul ediblər. Qanun layihəsi yerin təkindən istifadə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Qeyd edilib ki, ölkə üzrə faydalı qazıntı yataqlarının əhəmiyyətli hissəsi kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşir. Qeyri-neft sektorunun və sənayenin inkişafı, xammal asılılığının azaldılması məqsədilə bu yataqların istismarı zəruridir. Lakin hazırda yer təki istifadəçiləri tərəfindən torpaqların münbitliyinin və digər faydalı xassələrinin qorunması, bərpası və artırılması, eləcə də ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması məqsədilə rekultivasiya işlərinə dair sistemli qaydalar mövcud deyil. Bu çərçivədə rekultivasiya planlarının hazırlanması, dövlət ekoloji ekspertizasından keçirilməsi, münbit torpaq qatının qorunması və bərpası, hidrogeoloji və mühəndis-geoloji şəraitin nəzərə alınması kimi tələblər müəyyən ediləcək və torpaqların əvvəlki və ya alternativ faydalı vəziyyətə qaytarılması təmin ediləcək.

Dəyişikliklər yerin təkinin istifadəsi sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, təbii ehtiyatlardan istifadə olunmasının səmərəliliyinin yüksəldilməsinə, ekoloji təhlükəsizliyə, ekoloji balansın qorunmasına, dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasına və istismara cəlb olunan yer təki sahələrinin rekultivasiya tədbirlərinin sistemli aparılmasına xidmət edəcək.

### Süni intellektlə saxta görüntülər hazırlayanlar cəzalandırılacaq

İclasda, həmçinin Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda qəbul olunub. Layihə süni intellekt texnologiyalarından istifadə edilməklə reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması və yayılması ilə bağlı hüquqi çərçivənin formalaşdırılması məqsədi daşıyır. Həmin halların qarşısının alınması məqsədilə qanunda müvafiq hüquqi məsuliyyət mexanizmlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Qanun layihəsində Cinayət Məcəlləsinə yeni maddələrin əlavə edilməsi təklif olunur. Yeni maddələrə əsasən, şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audio materialların hazırlanması və yayılması cinayət məsuliyyəti yaradır. Bununla yanaşı, Cinayət-Prosessual Məcəlləsinə müvafiq dəyişiklik edilərək cinayət təqibinin həyata keçirilməsi ilə bağlı prosessual norma müəyyən edilir. Eyni zamanda, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara edilən dəyişikliklərlə süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlanmış materialların yayılması ilə bağlı əlavə hüquqi tələblər və məhdudiyyətlər müəyyən olunur.

İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər də müzakirələrdən sonra qəbul edilib. Dəyişikliklərə əsasən, dilənçiliklə məşğul olmağa görə xəbərdarlıq ediləcək, yaxud yüz manatdan iki yüz manatadək məbləğdə cərimələnəcək və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on günədək müddətə inzibati həbs tətbiq olunacaq. Yetkinlik yaşına çatmayan şəxsin dilənçiliyə cəlb edilməsinə görə iki yüz manatdan beş yüz manatadək məbləğdə cərimə ediləcək və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq olunacaq.

### Valideyn və müəllimlər cərimələnəcək

İnzibati Xətalar Məcəlləsinə təklif edilən digər dəyişikliklərə görə isə, tərbiyə etmək məqsədilə uşağa qarşı fiziki zorakılıq edən valideyn və müəllim cərimələnəcək. Layihəyə əsasən, valideynlər (onları əvəz edən şəxslər), uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri tərəfindən uşağa qarşı cismani cəzanın tətbiqinə, yəni tərbiyə etmək məqsədilə və ya intizam tədbiri kimi uşağa qarşı fiziki və (və ya) psixoloji zorakılığın törədilməsinə görə iki yüz manat məbləğində cərimə ediləcək. Bu, həmin əməl Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq ediləcək.

Qeyd edək ki, deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

İclasın sonunda spiker Sahibə Qafarova Novruz və Ramazan bayramları münasibətilə Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubunun ünvanlanmasını təklif edib. Təklif alqışlarla qarşılanıb.

*Nardar BAYRAMLI*

# Cənubi Qafqaz üçün gələcək - sabit qonşuluq və tərəfdaşlıq...

## Bakı yeni dövrün regional inkişaf xəritəsini yaradıb

**XX əsrlə XXI əsrin qovşağında, yəni ötən əsrin son 10 ilində dünyada yeni şəkillənmə, yeni nizam, yeni inkişaf predmetləri meydana çıxırdı. Uzun illər qəti qırmızı xətt ilə ayrılan qütbləşmə arasındakı "tikanlı məftillər" aradan qalxırdı. Artıq qlobal dünyada yeni sistem formalaşırdı. Belə ki:**

**- Kontinental inkişaf prosesi yerini regional inkişaf predmetlərinə verirdi - başqa sözlə, qitə maraqları bölgə maraqları ilə əvəz olunurdu;**

**- Təhlükəsizlik indeksinin parametrləri dəyişirdi - başqa sözlə, qütblərarası siyasi təhlükəsizlik meyarları yerini iqtisadi-ticari təhlükəsizlik proyeksiyasına tapşırırdı;**

**- İqtisadi təmərküzləşmənin coğrafiyası genişlənirdi - başqa sözlə, dünyada yeni bazar sistemi oturuşurdu ki, bu da "ikili qütb iqtisadi məkanı" anlayışını istisna edirdi.**

**Bir sözlə, həmin dövr yeni siyasi münasibətlər sisteminin, yeni iqtisadi əlaqələndirmə formatının, yeni əməkdaşlıq platformalarının qurulduğu bir zaman idi. Təxminən 200 illik bir dövrdə işğal altında olan, amma strateji əhəmiyyəti heç bir vaxt gözardı edilməyən Cənubi Qafqaz məhz belə bir zamanda arzuolunmaz konfrantasiyaya cəlb edildi. Ermənistanın işğalçı siyasəti ilk növbədə ümumilikdə Cənubi Qafqazın inkişaf trayektoriyasının qarşısını kəsdi, regionun inkişaf elementlərinin təşviqinə imkan vermədi.**

### Bakı müharibə şəraitində olsa da, Cənubi Qafqazı diqqət mərkəzinə gətirdi

30 il ərzində davam edən erməni işğalı, Cənubi Qafqazın qeyri-stabil siyasi-hərbi durumu bölgənin iqtisadi potensialının tam açılmasına mane oldu. Düzdür, Azərbaycanın yürütdüyü praqmatik siyasət müəyyən mənada bu situasiyanı dəyişə bildi - Azərbaycan ilə Gürcüstan arasındakı müsbət siyasi dialoq mühiti, iqtisadi əlaqələrin davamlığı, inteqrasiya prosesindəki koordinasiya regionun logistik, geostrateji, geocoğrafi üstünlüklərinin təqdimatına imkan yaratdı. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn "Əsrin müqaviləsi" layihəsi Cənubi Qafqazın qlobal sistem üçün əhəmiyyətini ön plana çıxardı. Ard-arda reallaşan Bakı -Tbilisi Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji xətləri, Bakı-Tbilisi-Qars dəmir yolu Cənubi Qafqazın "pasport təqdimatı"na çevrildi. Bakı ilə Tbilisi arasında dərinləşən əlaqələr təkcə iki ölkənin deyil, bütün Cənubi Qafqazın iqtisadi təhlükəsizliyinin təminatçısına çevrildi. Bu isə növbəti mərhələdə regional inkişaf perspektivinə olduqca mühüm təsir göstərəcək Orta Dəhliz layihəsinin ortaya çıxmasını şərtləndirdi. Bəli, bu gün Cənubi Qafqazın əsas inkişaf predmeti kimi görülən logistik üstünlük ilkin mərhələdə məhz Orta Dəhliz layihəsinin yaranması, onun perspektivi və ortaya çıxardığı nəticələrə əsaslanır.

### Post-müharibə reallıqları: qarşıdurma və təcrid siyasətinə alternativ...

2020-ci il Vətən müharibəsi və onun nəticələri isə regionun inkişaf perspektivinə yeni bir mərhələ qazandırdı. 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıq regionda köhnə qarşıdurma xəttini aradan qaldıraraq əməkdaşlıq və tərəfdaşlıq üçün real zəmin formalaşdırıb - bu isə regional inkişaf strategiyasının artıq 3 dövlət tərəfindən də qəbul edildiyini ortaya qoyur. Bakının təhlükəsizliyin yalnız hərbi güc üzərindən deyil, qarşılıqlı iqtisadi əlaqələr, nəqliyyat-kommunikasiya bağlantıları və siyasi dialoq vasitəsilə möhkəmləndirilməsini prioritet elan etməsi, yəni, sülh təşəbbüsləri vasitəsilə Cənubi Qafqaza yeni bir gələcək vədi yeni bir situasiya formalaşdırıb. Azərbaycanın təqdim etdiyi yeni nizam modeli qarşıdurma və təcrid siyasətinə alternativ olaraq bərabərhüquqlu əməkdaşlıq prinsipinə əsaslanır. Bu yanaşma region dövlətlərinin suverenliyinə hörmət, sərhədlərin toxunulmazlığı və iqtisadi inteqrasiyanın təşviqini özündə ehtiva edir. Müharibədən sonrakı dövrdə rəsmi Bakı revanşist ritorikadan uzaq dayanaraq sülh gündəliyini ön plana çıxararaq bu amili Cənubi Qafqazda uzunmüddətli sabitliyin əsas şərti kimi qiymətləndirir.



### Regionda sabitlik, iqtisadi inkişaf dövrü başlayıb

Yeri gəlmişkən, region ölkələrinin ekspertləri, siyasət adamları da eyni mövqeni bölüşür. Məsələn, Gürcüstan parlamentinin keçmiş spikeri, Vahid Gürcüstan-Demokratik Hərəkat partiyasının lideri Nino Burcanadze bildirib ki, Cənubi Qafqazda sülhün bərpa olunması çox vacibdir: "Biz Ermənistan ilə Azərbaycan arasında davam edən sülh prosesini dəstəkləyirik. Çox şadam ki, münaqişə dövrü artıq arxada qalıb və regionda sabitlik, iqtisadi inkişaf dövrü başlayıb".

Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev torpaqları azad edərək çox böyük iş gördü və onun müdrikliyi sülh müqaviləsinin imzalanmasına da imkan yaradacaq. "Əlbəttə ki, sülh prosesinə mane olmaq istəyən qüvvələr olacaq və bu, heç də asan məsələ deyil. Lakin hər iki dövlətin siyasi iradəsi sülhün dayanıqlı olmasına zəmin yarada bilər. Mən Cənubi Qafqazda sülhün, əmin-amanlığın hökm sürməsinə regionda yerləşən hər 3 dövlətin - Azərbaycan, Gürcüstan və Ermənistanın iqtisadi inkişaf mərhələsinə qədəm qoyacağına və mehriban qonşu dövlətlər olacaqlarına inanıram", - deyən Burcanadze əlavə edib ki, müstəqil Gürcüstan ilə Azərbaycan arasındakı münasibətlərin mehriban qonşuluq və tərəfdaşlıq istiqamətində formalaşmasında Eduard Şevarnadze və Heydər Əliyevin böyük rolu olub: "O dövrdə Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkilərkən hər iki lider milli maraqları üstün tutaraq bu layihənin həyata keçməsinə nail oldular. Sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkildi ki, bunlar da dövlətlərimiz arasındakı qarşılıqlı faydalı əlaqələrin inkişafını göstərir".

### Yeni Cənubi Qafqaz...

Regionun bugünkü mənzərəsi aydın şəkildə göstərir ki, sülh, əməkdaşlıq və qarşılıqlı münasibətlər sisteminə yeni baxış Cənubi Qafqaz siyasətinin yeni normasıdır. Azərbaycan bölgədə sabitlik yaradan lider dövlət kimi çıxış edir və bu, uzunmüddətli inkişafın təminatıdır. Hər üç bölgə dövləti:

- Qlobal əməkdaşlıq prosesinin sürətli inkişafından;
- Azərbaycanın sayəsində əldə edilmiş təhlükəsizlik indeksi üzərindən Cənubi Qafqazın iqtisadi-ticari çəkisinin artmasından;
- 4 cəhət üzrə inteqrasiya imkanlarının genişlənməsindən razıdır. Çünki Bakının yaratdığı yeni reallıqlar Cənubi Qafqazın gələcəyi üçün üç əsas istiqamət müəyyənləşib:
- Siyasi sabitlik və diplomatik balans - münaqişəsiz qonşuluq modeli;
- İqtisadi inteqrasiya - vahid ticarət və logistika məkanının formalaşması;
- Humanitar əməkdaşlıq - xalqlar arasında etimad və qarşılıqlı anlayış mühiti.

Azərbaycanın təşəbbüsü ilə formalaşan bu reallıq Cənubi Qafqazı qarşıdurma bölgəsindən inkişaf məkanına çevirir. Bakı diplomatiyasının məzmunu "qalib tərəf" deyil, "tərəfdaş region" fəlsəfəsinə əsaslanır. Azərbaycanın rəhbərliyi ilə formalaşan yeni Cənubi Qafqaz modeli həm iqtisadi inteqrasiyanı, həm də siyasi sabitliyi təmin edən mühüm mərhələdir. Bu modelin mərkəzində "sülh naminə əməkdaşlıq" prinsipi dayanır. Bakı bölgədəki bütün dövlətlər üçün ortaq iqtisadi, siyasi, ticari və humanitar birlik formatı - dolayısı ilə yeni Cənubi Qafqaz qurur. Bu, geostrateji coğrafi məkanın daha da inkişaf etməsi üçün sabitlik, bərabərlik və qarşılıqlı etimad ən vacib ştrixlərdir. Azərbaycanın diplomatik uzaqgörənliyi və regional məsuliyyəti nəticəsində Cənubi Qafqaz artıq konfliktlər coğrafiyasından çıxaraq sülh, əməkdaşlıq və inkişafın yeni məkanı kimi tarixə daxil olur.

*Pərviz SADAYOĞLU*

# Kredit tərəfdaşı və aparıcı səhmdar...

## Azərbaycan Qara Dəniz Ticarət və İnkişaf Bankının etibarlı üzvlərindən birinə çevrilib

Maliyyə naziri, Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Azərbaycan üzrə rəhbəri Sahil Babayev QDTİB-nin prezidenti Serhat Köksalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə əməkdaşlıq məsələlərini müzakirə edib. S. Babayev Bankın Azərbaycanın iqtisadi inkişafına və Qara dəniz regionunda iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə verdiyi töhfələri yüksək qiymətləndirib. Azərbaycanın QDTİB-nin təsisçi üzvlərindən biri kimi Bankın gələcək inkişafını dəstəklədiyini bildirən nazir qeyd edib ki, Bank fəaliyyətə başladığı vaxtdan etibarən Azərbaycanda maliyyələşdirdiyi layihələrlə ölkədə özəl sektorun inkişafına və maliyyə sektorunun gücləndirilməsinə töhfə verib. Bildirilib ki, QDTİB Azərbaycanda yerli valyutada istiqraz buraxan ilk beynəlxalq maliyyə institutu olub və Bank özəl sektorun maliyyələşdirilməsini dəstəkləmək məqsədilə 2019-cu ildə Bakı Fond Birjasında korporativ istiqrazlar yerləşdirib.

Görüşdə Azərbaycanın QDTİB Rəhbərlər Şurasına hazırkı sədrliyi də diqqət mərkəzində olub, Bankın 2026-cı ilin iyul ayında Bakıda keçiriləcək növbəti illik toplantısının regional maliyyə əməkdaşlığının daha da möhkəmləndirilməsi baxımından mühüm platforma olacağı vurğulanıb.

Serhat Köksal Azərbaycan ilə əməkdaşlığın Bank üçün mühüm əhəmiyyət daşıdığını bildirərək ölkəmizdə həyata keçirilən iqtisadi islahatların və formalaşdırılmış əlverişli investisiya mühitinin beynəlxalq maliyyə institutları üçün yeni imkanlar yaradacağını qeyd edib. Hazırda tərəflər gələcək əməkdaşlıq planı çərçivəsində özəl sektorun inkişafının maliyyələşdirilməsi, kiçik və orta biznesin və maliyyə institutlarının dəstəklənməsi, regional ticarətin və nəqliyyat-logistika bağlantısının təşviqi, həmçinin dayanıqlı inkişaf və iqtisadi şaxələndirmə ilə bağlı layihələrin dəstəklənməsini nəzərdə tutur.

Qara dəniz Bankının kapitalının artırılması prosesində Azərbaycanın iştirakı da mühüm yer tutur. QDTİB beynəlxalq dövlətlərarası maliyyə kredit təşkilatıdır. Bank Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər - Albaniya, Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Yunanıstan və Ukrayna tərəfindən yaradılıb.

QDTİB iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir, üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların və zəmanətlərin verilməsində və ticarətin maliyyələşdirilməsində iştirak edir.

### 500 milyon avrodan çox maliyyə donorluğu

Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə Azərbaycan arasında əlaqələrin 27 illik tarixi ərzində mühüm layihələrin icrası həyata keçirilib. 1999-cu ildə Azərbaycanın iştirakı ilə təsis edilmiş bu beynəlxalq maliyyə institutu ölkəmizin iqtisadiyyatına investisiyaların qoyulmasında, xüsusilə özəl sektorun maliyyələşməsində fəal rol oynayıb. Bankın Azərbaycandakı əsas portfeli kiçik və orta sahibkarlığa dəstək (47,5 faiz), enerji (35 faiz), daşınmaz əmlak (8,4 faiz), istehlak malları (4,8 faiz) və sənaye (4,4 faiz) ) təşkil edir.

Fəaliyyətə başladığı vaxtdan QDTİB Azərbaycan hökumətinin investisiya prioritetlərinə uyğun olaraq ümumi dəyəri 500 milyon avrodan çox olan 40 layihəni maliyyələşdirib. Bank "Şahdəniz" kimi strateji əhəmiyyətli enerji layihələrində iştirak edib, eyni zamanda, kiçik və orta biznesə davamlı dəstəyini artırıb. Ümumilikdə, Qara Dəniz Bankının Azərbaycana yönəltdiyi investiyaların həcmi ümumi kredit portfelinin təxminən 10 faizlik resursu həcmindədir.

Azərbaycan bu bankın üzvü olmaqla yanaşı, həm də səhmdarlarından biridir. QDTİB-in səhm kapitalında ölkəmiz 5 faiz paya malikdir ki, bu, 7-ci ən böyük səhmdarlıq statusu deməkdir. QDTİB-nin Rəhbərlər Şurasının 2021-ci ilin oktyabrında keçirilən Xüsusi Toplantısında bankın abunə kapitalının artırılmasında Azərbaycan da mühüm rol oynayıb, ümumi dəyəri 41 milyon avro təşkil edən 36,6 min səhmin 12,3 milyon avro məbləğində olan hissəsi ölkəmiz tərəfindən əldə edilib.



### Əməkdaşlığın yeni gündəliyi - "yaşıl enerji" və "yaşıl maliyyə"...

Qara Dəniz Bankı ilə Azərbaycan arasında əməkdaşlığın müasir gündəliyində KOB-ların inkişafı və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, "yaşıl iqtisadiyyat"ın təşviqi məqsədilə korporativ və fərdi müştərilərin ehtiyaclarının kreditləşdirilməsi və digər prioritetlər daxildir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə biznesə dəstək və müasir sənaye-emal zəncirinin qurulmasından bankın donorluğu istisna olunmur. SOCAR-la "yaşıl enerji" üzrə layihələrin həyata keçirilməsi də danışıqlar mövzusundadır. Bir neçə ay əvvəl Bakıda olan bankın vitse-prezidenti Draqoş-Paul Ungureanu işğaldan azad edilmiş ərazilərin bərpası və bərk məişət tullantılarının idarə olunması layihələrinin maliyyələşdirilməsində iştirakın mümkünlüyünü vurğulayıb.

QDTİB ölkəmizlə yeni əməkdaşlıq mərhələsində "yaşıl maliyyələşmə" və investisiyaların artırılmasını da istiqamətlərdən biri hesab edir. Bu məqsədlə Azərbaycanın maliyyə institutları, o cümlədən banklarla "yaşıl layihələr" üzrə müqavilə imzalanması nəzərdə tutulur. Bankın rəhbərliyi COP29 çərçivəsində qlobal alyansın razılaşdırdığı iqlim maliyyəsi strategiyasına da müsbət yanaşaraq iqlim donorluğunda imkanlarının səfərbər ediləcəyini də bildirib. Bu çərçivəyə əsasən, Azərbaycanın "yaşıl maliyyə" üzrə investisiya prioritetlərinə QDTİB-in maliyyə dəstəyi verəcəyi ehtimal olunur.

*E.CƏFƏRLİ*

# "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsi həlledici mərhələyə daxil olur

Qazaxıstan parlamenti ötən həftənin sonunda Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "Yaşıl enerji"nin istehsalı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişi ratifikasiya edib. Sənəd Mərkəzi Asiya ölkələrini Xəzər dənizi vasitəsilə Avropa ilə birləşdirəcək "Yaşıl enerji dəhlizi"nin yaradılmasını nəzərdə tutur. Saziş 2024-cü il noyabrın 13-də Bakıda keçirilən COP29 çərçivəsində üç ölkənin dövlət başçıları tərəfindən imzalanıb. Sənəd bərpa olunan enerji mənbələrinin potensialından səmərəli istifadəni, ekoloji cəhətdən təmiz elektrik enerjisinin ticarətini, habelə "yaşıl enerji", ammonyak və hidrogenin Avropa bazarlarına ixracını hədəfləyir.

Qazaxıstan Energetika Nazirliyinin məlumatına əsasən, layihənin əsas elementi Xəzər dənizinin dibi ilə yüksək gərginlikli sabit cərəyan kabelinin çəkilməsidir. Bu kabel vasitəsilə Qazaxıstan və Özbəkistanda istehsal olunan təmiz elektrik enerjisi Azərbaycana, oradan isə Qara dəniz enerji layihəsi vasitəsilə Avropaya ötürüləcək. Layihənin texniki-iqtisadi əsaslandırmasını İtaliyanın "CESI" beynəlxalq konsaltinq şirkəti hazırlayır. TİƏ-nin hazırlanmasının dəyəri təxminən 1 milyon avro təşkil edir və beynəlxalq maliyyə institutlarının qrant vəsaitləri hesabına maliyyələşdirilir.

## Azərbaycan, Qazaxıstan və Özbəkistan regionun enerji xəritəsini dəyişir

Qeyd edək ki, 2025-ci il iyulun 1-də Qazaxıstan, Azərbaycan və Özbəkistanın sistem operatorları layihənin icrasını əlaqələndirən və ekspertlərin müntəzəm işgüzar görüşlərini təşkil edən "Green Corridor Alliance" birgə müəssisəsini yaradıblar. Birgə müəssisədə hər ölkənin payı 33,3 faiz təşkil edir.

Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin istehsalı və ötürülməsi üzrə strateji tərəfdaşlıq çərçivəsində mühüm addımlardan biri də Bakıda keçirilən beynəlxalq müzakirələrlə müşayiət olundu. Belə ki, Asiya İnkişaf Bankı Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri ilə birlikdə martın 4-də Bakıda "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırılmasının ilk mərhələsinə həsr olunmuş başlanğıc seminar təşkil edildi. Bu görüş Xəzər regionunda vahid elektrik enerjisi şəbəkəsinin formalaşdırılması imkanlarının araşdırılması baxımından mühüm mərhələ kimi qiymətləndirilib.

Seminarda bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyası, elektrik şəbəkəsinin modelləşdirilməsi və Xəzər dənizi ilə çəkilməsi planlaşdırılan sualtı kabelin texniki parametrləri kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda, layihənin hüquqi-normativ çərçivəsi, telekommunikasiya infrastrukturu və icra mexanizmləri də müzakirə olunan əsas mövzular sırasında olub.

İqtisadçı Zahid Məmmədov bildirib ki, sazişin ratifikasiyası "yaşıl dəhliz"in reallaşması üşün mühüm mərhələnin başlanmasının hüquqi əsasını yaradır. Artıq Xəzər hövzəsi yeni nəsil kommunikasiya və enerji infrastrukturunun qovşağı kimi formalaşmağa başlayır. "Rəqəmsal İpək yolu" təşəbbüsü çərçivəsində Xəzər dənizinin dibi ilə çəkilməsi planlaşdırılan fiber-optik kabel xətti region ölkələrinin rəqəmsal əlaqələrini gücləndirməklə yanaşı, enerji əməkdaşlığının texnoloji əsaslarını da möhkəmləndirir. Müasir enerji sistemlərinin effektiv fəaliyyəti üçün yüksək sürətli məlumat ötürülməsi və rəqəmsal koordinasiya həllədici rol




## "Yaşıl dəhliz"dən "Rəqəmsal İpək yolu"na...

oynadığından belə kommunikasiya infrastrukturu regional enerji layihələrinin ayrılmaz hissəsinə çevrilir. Xüsusilə də "yaşıl enerji" layihələrinin inkişaf etdiyi indiki mərhələdə bu təşəbbüsün əhəmiyyəti daha da artır. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji zonası" konsepsiyasını həyata keçirərək günəş, külək və su ehtiyatları əsasında yeni enerji mərkəzləri formalaşdırır. Paralel olaraq Mərkəzi Asiya ölkələrində də bərpaolunan enerji potensialının sürətlə inkişaf etdirilməsi region daxilində enerji əməkdaşlığını daha geniş müstəviyə çıxarır.

Belə şəraitdə fiber-optik kabel infrastrukturu enerji istehsalı ilə enerji bazarları arasında qurulan körpünün rəqəmsal dayağı rolunu oynayacaq. Bu texnoloji xətt vasitəsilə enerji sistemlərinin idarə olunması, ötürmə şəbəkələrinin sinxronlaşdırılması və regional enerji ticarətinin operativ koordinasiyası mümkün olacaq. Nəticədə, Xəzər regionu tədricən həm "yaşıl enerji" ixracının, həm də rəqəmsal kommunikasiya marşrutlarının kəsişdiyi mühüm geoiqtisadi məkana çevrilir.

"Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin strateji əhəmiyyətinə toxunan Z.Məmmədovun fikrincə, Gürcüstan, Rumıniya, Macarıstan və Azərbaycan arasında imzalanmış memorandum əsasında Qara dənizin dibi ilə çəkiləcək 1155 kilometrlik yüksəkgərginlikli kabel xətti Cənubi Qafqaz ilə Cənub-Şərqi Avropanın enerji sistemlərini birbaşa birləşdirəcək. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin 2026-2036-cı illər üzrə Şəbəkə İnkişaf Planına daxil edilməsi ilə bağlı aparılan müzakirələr də layihənin Avropa miqyasında prioritet istiqamət kimi qəbul edildiyini göstərir.

Digər ekspertlər də hesab edirlər ki, Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında "yaşıl enerji"nin istehsalı və ötürülməsi üzrə strateji tərəfdaşlıq haqqında sazişin ratifikasiyası Mərkəzi Asiya-Xəzər-Avropa enerji dəhlizinin yeni mərhələyə keçdiyini göstərir. Bu layihə yalnız enerji əməkdaşlığı deyil, həm də regionda formalaşan yeni "yaşıl enerji geoiqtisadiyyatı"nın əsas elementlərindən biridir. Azərbaycan artıq Cənub Qaz Dəhlizi kimi böyük enerji layihələrində mühüm tranzit və strateji tərəfdaş rolunu sübut edib. İndi isə eyni geoiqtisadi modelin 'yaşıl enerji' sahəsində tətbiqi ölkənin regional enerji arxitekturasında mövqeyini daha da gücləndirə bilər. "Yaşıl enerji" qlobal bazarlara - xüsusilə Avropa enerji sisteminə çıxış əldə edərsə, qazanılacaq dividendlər bir neçə istiqamətdə özünü göstərə bilər. Birincisi, Azərbaycan üçün yeni enerji ixracı imkanları və tranzit gəlirləri formalaşacaq. İkincisi, region ölkələri üçün enerji təhlükəsizliyi və enerji sistemlərinin diversifikasiyası güclənəcək. Üçüncüsü isə bu layihə Xəzər hövzəsini yalnız neft-qaz regionu kimi deyil, həm də "yaşıl enerji platforması" kimi beynəlxalq enerji xəritəsində daha mühüm mövqeyə çıxara bilər.

## "Yaşıl enerji geoiqtisadiyyatı" formalaşır

Nəticə etibarilə, bu təşəbbüs təkcə üç ölkə arasında enerji əməkdaşlığı deyil, həm də Avrasiya məkanında yeni "yaşıl enerji körpüsü"nün formalaşmasına doğru strateji addım kimi qiymətləndirilə bilər.

Strateji baxımdan bu layihə Azərbaycanın dünya enerji xəritəsində rolunu dəyişə bilər. Azərbaycan beynəlxalq bazarda artıq yalnız neft və qaz ixrac edən məkan kimi deyil, həm də qlobal enerji keçidində mühüm "yaşıl enerji platforması" kimi çıxış etmək imkanına malik olacaq, ölkəmizin dayanıqlı enerji sahəsində etibarlı tərəfdaş kimi mövqeyini gücləndirməyə və Avrasiyanın əsas enerji qovşaqlarından birinə çevirməyə imkan yaradacaq.

*E.CƏFƏRLİ*

# Neftin qiyməti idarəolunmaz həddə çatır

## Artan enerji qiymətləri dünyada yeni maliyyə böhranı yarada bilər

Martın 17-də birjalarda "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 0,09 dollar və ya 0,08 faiz artaraq 109,19 ABŞ dolları təşkil edib. Eləcə də "Brent" markalı neftin, təbii qazın və LNG yanacağının qiymətlərində artımlar baş verib. Qiymətlərin yüksəlməsinə səbəb Yaxın Şərqdə baş verən geosiyasi gərginliklər və müharibə risklərinin davam etməsidir. Qeyd edilən regionda müharibənin başlanmasından sonra dünya bazarında ən çox neftin qiyməti bahalaşmaqdadır. Dünya neftinin və mayeləşdirilmiş təbii qaz axınının 20 faizinin keçdiyi kritik Hörmüz boğazının bağlanması isə enerji qiymətlərini və inflyasiya qorxularını daha da artırır. Bağlanma, həmçinin logistika şirkətləri gəmilərin təyinat yerlərini dəyişdirmək, malları quru yolu ilə daşımaq və tez xarab olan məhsulların sıradan çıxmasının qarşısını almaq kimi baş ağrılarını aradan qaldırmaq baxımından ciddi problemlər yaradır, vacib idxal axınını qorumaq üçün sürətli və bahalı təchizat zəncirini yenidən düşünməyə məcbur edir.

Məsələ ondadır ki, Prezident Donald Trampın "müharibəni tezliklə başa çatdıracağıq" bəyanatından sonra qiymət 100 dollardan 98 dollara qədər azalsa da, son günlərdə münaqişənin yenidən gərginləşməsi bu bəyanatın təsir gücünü azaldıb və "qara qızıl" yenidən yuxarı istiqamətdə dövr etməkdədir. Yəni psixoloji məzmun daşıyan bu bəyanat, əslində, qlobal logistika tədarükçülərində yaşanan təşviş heç bir şəkildə azaltmır. "Financial Times" qəzetinin məlumatına görə, Beynəlxalq Dənizçilik Təşkilatının (IMO) rəhbəri Arsenio Dominqes bildirib ki, Hörmüz boğazından keçən dəniz eskortları su yolundan keçməyə çalışan gəmilərin təhlükəsizliyinə 100 faizlik zəmanət verməyəcək. Hərbi yardımın bu boğazın açılması üçün uzunmüddətli və ya davamlı bir həll yolu olmadığı isə çıxış nöqtəsi sayılmır. Baş verən fraqmentasiyalar fonunda isə neft və neft məhsullarının, eləcə də kimya və digər sənaye xammallarının qiymətlərinin hələ xeyli müddət yüksək həddə qalacağı istisna edilmir. Hazırda Avropa və ABŞ-nin yanacaqdoldurma məntəqələrində benzin və dizelin qiyməti də kəskin artıb ki, bu da digər sektorlarda da istehsal və tədarük zəncirlərini təhdid edir.

## Hörmüz boğazının qapanması nefti 215 dollara kimi bahalaşdıracaq

Analitiklər hesab edir ki, münaqişənin uzanması halında neftin qiyməti 140 dollara səviyyəsinə qədər arta bilər, ən pessimist ssenarilərdə isə 200 dollar səviyyəsinə qədər yüksəlməsi istisna edilmir. Enerji qiymətlərinin uzun müddət yüksək qalması qlobal inflyasiya təzyiqlərini artırmaqla yanaşı, bəzi iqtisadiyyatlarda yüngül resessiya riskini də gücləndirə bilər. ABŞ-ın nüfuzlu "The Wall Street Journal" yazır ki, Hörmüz boğazı uzun müddət bağlı qalarsa neftin bir barreli 215 dollara kimi bahalaşa bilər və bu vəziyyət enerji şoku yaradar. Hazırda dünya bazarının tələbatının 15 milyon tonu çatışmır ki, bu da Yaxın Şərq ölkələrindən ixrac olunan neftin həcmidir. Körfəzdə müharibənin davam etməsi neft idxalçılarının Cənubi Amerikaya yönəlməsini şərtləndirib. Braziliya, Argentina və Qayanada neft hasilatı artırılıb. Lakin dünyanın bir yarımkürəsindən digər yarımkürəsinə neftin nəqli çox baha başa gəlir. Digər tərəfdən isə bu ölkələrdə hasilatın artırılması üçün külli miqdarda sərmayə və zaman lazımdır.

Rusiya Xalq Təsərrüfatı Akademiyasının analitiki, iqtisad elmləri doktoru Nikolay Kopenka bildirib ki, neftin qiymətinin bahalaşması dünya gəmiçiliyinə də böyük zərər vurub. Bahalaşma dəniz nəqliyyatını demək olar ki, iflic vəziyyətinə salıb. Limanlardakı terminallarda mazut ehtiyatı azaldıqca daşıma qiymətləri də artır. Konteyner daşıyan gəmilər Sinqapur və Fuceyra terminallarına yan alıb yanacaq doldura bilmirlər və yüklər günlərlə daşınmır. Hazırda mazutun 1 barelinin qiyməti Sinqapurda 140 Fuceyrada isə 160 dollardır. Mazutun ekoloji sortunun qiyməti isə 175 dollara satılır.

## Azərbaycan qiymət dəyişkənliyini dərindən izləyir

Yeri gəlmişkən, XIII Qlobal Bakı Forumunda çıxış edən Prezident İlham Əliyev də neftin qlobal bazardakı qiymət dəyişikliklərinin təsirlərinə toxunarkən neftin bahalaşmasının arzuolunmaz fəsadlarına da diqqət çəkdi. Qeyd edildiyi kimi "neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırılabilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir".



Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və "OPEC+" ölkələri də neftin yüksək sıçrayışından narahatdır. Onlar orta bazar qiymətinin 80-90 dollar arasında olmasının daha sabit əmsal hesab edir. Mövcud ssenarilər fonunda sabit enerji bazarı konyukturası bir çox ölkələr kimi Azərbaycan üçün də xüsusi əhəmiyyət daşıyır. Onu da xatırladaq ki, Azərbaycan hökuməti qlobal enerji qiymətlərində kəskin artım fonunda ölkə iqtisadiyyatına, əlaxsus da idxal inflyasiyasının artması ehtimalına da xüsusi nəzarət edir və bu faktorun pul siyasətinə təsirini dərindən izləyir. Mərkəzi Bank (MB) hazırkı şəraitdə neft və qaz qiymətləri ilə bağlı dəqiq proqnoz verməyin olduqca çətin olduğunu bildirir. Belə ki, qiymətlərin kəskin artması və ya əvvəlki səviyyələrinə qayıtması əsasən mövcud münaqişənin hansı istiqamətdə inkişaf etməsindən asılı olacaq.

*E.CƏFƏRLİ*

## Qlobal investorlar böyük itkilərlə üzləşə bilər

Neftin bahalaşması bütünlüklə qlobal iqtisadiyyatı da dərindən təhdid edir. İlk növbədə, neft və enerjinin bahalaşması sənaye və istehsal xərclərini artırır, iri şirkətlərin bazar xərclərinin yüksəlməsi fonunda alıcılıq portfelini aşağı salır. Eyni zamanda, neftin bahalaşması dünya maliyyə sisteminə kəskin təsir edərək bir sıra səhm və investisiya alətlərinin fond dəyərinin ucuzlaşdırır. Nəticədə iri bank və investisiya şirkətlərinin, eləcə də suveren fondların maliyyə alətlərinin səhm və istiqrazları, digər qiymətli kağızları dəyərdən düşür. Mart ayının ikinci ongünlüyündə qlobal maliyyə bazarlarında həm iqtisadi göstəricilərin, həm də geosiyasi risklərin təsiri ilə formalaşan yüksək volatillik ABŞ, Almaniya, Avrozona və İngiltərədə makroiqtisadi göstəriciləri pisləşdirib. İnvestorlar mövcud şəraitdə monetar siyasət gözləntilərini yenidən qiymətləndirir ki, bu da dünya birjalarında ehtiyatlı ticarət mühitini formalaşdırır, bəzi investorlara və səhmdarlara aktiv fəaliyyətdən çəkinmək siqnalları verir. İnvestorlar riskli aktivlərdən qismən uzaqlaşmaq və vəsaitləri təhlükəsiz aktivlərə yönəlmək səmtinə üstünlük verməkdədir.

Nəzərə alsaq ki, Azərbaycanın milli suveren təsisatı olan Dövlət Neft Fondu qlobal iqtisadi mühitdə və investisiya bazarlarında baş verən proseslərə uyğun olaraq öz investisiya siyasətini daim təkmilləşdirir, risklərin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirir. DNF məcmu aktivlərinin əhəmiyyətli hissəsini uğurlu investisiya siyasəti çərçivəsində qlobal bazarlarda müxtəlif maliyyə alətlərinə, o cümlədən, səhm, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələrə yönəldib. Son 5 ildə DNF-nin investisiya fəaliyyətindən dividentləri 22,7 milyard dollar təşkil edib. Bu müddətdə fondun aktivləri 29,9 milyard dollar və ya 70 faiz artaraq 43,6 milyard dollardan 73,5 milyard ABŞ dollara yüksəlib. Bu göstəricilər Fondun investisiya fəaliyyətinin rolunun əhəmiyyətli dərəcədə gücləndiyini və dayanıqlı dəyər yaradan əsas mənbələrdən birinə çevrildiyini nümayiş etdirir. Yəni, neftin baha qiymətindən daha çox qlobal investisiya alətlərinin sabitliyi DNF üçün daha sərfəlidir.

# Türkün qəhrəmanlıq dastanı - Çanaqqala savaşı

Türkün tarixi qanla yazılıb. Tarixdə qəhrəman Türk xalqı özünün milli kimliyini, sərhədlərini yağı düşmənlərdən qorumaq üçün amansız döyüşlərə qatılıb və hər zaman da misilsiz igidlik nümunələri göstərib. Belə döyüşlərdən biri də tarixin bu günündə - 1915-ci il martın 18-də başlayan və 1916-cı il yanvarın 9-dək davam edən Çanaqqala savaşıdır.

Bu dəhşətli savaş Antanta dövlətlərinin hərbi birləşmələri (Britaniya və Fransa) ilə Osmanlı ordusu arasında baş verib. On ay davam edən Çanaqqala savaşı qardaş ölkənin, bütün Türk dünyasının tarixinə qəhrəmanlıq dastanı kimi yazılıb. Bu gün Çanaqqala şəhidlərinin anım günüdür. Onların əziz xatirəsi hər il həm Türkiyədə, həm də Azərbaycanda böyük minnətdarlıq hissi ilə yad edilir.

## Niyə məhz Çanaqqala?

Osmanlı dövlətinin zəifləməsini fürsət kimi dəyərləndirən Atlanta dövlətləri özlərinin geosiyasi məqsədlərinə nail olmaq istəyirdilər. Onların planı Osmanlı dövlətinin paytaxtı İstanbulu almaq məqsədilə boğazlara nəzarəti ələ keçirmək, Rusiya ilə etibarlı ticarət yolu açmaq, Almaniyanın müttəfiqlərindən birini zəiflətməkdən ibarət idi. Osmanlı dövlətinə məxsus boğazlar strateji baxımdan Antanta dövlətləri üçün ən əlverişli şans sayılırdı. Boğazların tutulması ilə həm də Türkiyənin Qara dənizdə hökmranlığına birdəfəlik son qoyulacaqdı.

Bəs müttəfiq qüvvələri hücum üçün niyə məhz Çanaqqala boğazını seçdilər? Bu onunla bağlı idi ki, Çanaqqala İstanbulu ələ keçirməyin ən real giriş qapısı sayılırdı. 1914-cü il noyabrın 3-də ingilis və fransız qüvvələri boğazın ağzına doğru yaxınlaşdılar. İngilislər Seddülbahir və Ərtoğrul qalalarını, fransızlar da Anadolu yaxtasında Qumqala və Orhaniyə qalalarını topa tutdular. İngilis sualtı qayıqları dekabrın 2-də boğaza girdi və 750 metr irəlidə yerləşən "Mesudiye" zirehli gəmisinə mərmi ataraq gəmini batırdı. Bundan sonra İngiltərə 1915-ci il yanvarın 28-də Osmanlı dövləti ilə döyüş qərarı verdi və bu qərara Fransa da qoşuldu.

Martın 18-də ingilis-fransız gəmiləri şiddətli atəşə başladılar. Mecidiyyə və Hamidiyyə istehkamları ardıcıl atəşə tutuldu. Qüvvələr nisbəti fərqli olsa da, düşmən Osmanlı əsgərlərinin müqaviməti qıraraq İstanbulu və boğazları tutmaq niyyətini həyata keçirə bilmədi. Qumqala, Beşike, Bolayır, Seddülbahir, Anbumu, Qabatəpə, Conkbayır və Anafartalarda gedən döyüşlərdə hər iki tərəf çoxlu sayda itkilər verdi. Dənizdən hücumla Çanaqqalanı ələ keçirə bilməyəcəyini anlayan düşmən taktikanı dəyişərək Mustafa Kamal Paşanın dediyi kimi, Seddülbahirdən quruya qoşun çıxartdı.

1915-ci il aprelin 25-də adıçəkilən istiqamətdə quruya çıxarılan ingilis-fransız əsgərləri ilə Osmanlı ordusu arasında o dövrün ən qanlı döyüşləri başlayır. Başdan-ayağa qədər silahlanan çoxsaylı düşmən qarşısında Osmanlı əsgərlərinin sayı olduqca az idi. Bu zaman Mustafa Kamal Qocaçimməndə, Conkbayırda döyüşürdü. Ağır döyüşlər gedərkən əsgərlərin mərmilərinin bitdiyini görən Mustafa Kamal onlara süngülərini tüfənglərinə keçirməyi əmr etdi və "Mən sizə ölməyi əmr edirəm. Biz öldükdən sonra yerimizə digər qüvvələr, başqa komandanlar keçəcək", - deyə bildirdi. Bu, bəlkə də tarix boyu görünmüş ən böyük sınaq və şərəf döyüşü oldu. Şəhid olan əsgərlərin yeri həmin an doldurulurdu. Tezliklə dekabrın 20-də Anafartalar və Arıburnu cəbhəsi, 1916-cı il yanvarın 8-9-da Seddülbahir düşmənlərdən azad edildi. Beləliklə, düşmənin birləşmiş qüvvələri geri çəkilmək məcburiyyətində qalaraq döyüş məkanını tərk etdilər.




## Gələcək qurtuluş savaşının şərəfli başlanğıcı

Çanaqqala döyüşü həm də gələcək qurtuluş savaşının şərəfli başlanğıcı oldu. Dəniz və quru qoşunlarını əhatə edən və bütün çətinliklərə baxmayaraq, türk hərb tarixinin şərəfli səhifələrindən birinə çevrilən Çanaqqala döyüşü Atatürk kimi bir dahini yetişdirmiş, gələcək qurtuluş savaşında onun liderliyinə əsas zəmin olmuşdur. Hər biri ayrı-ayrılıqda qəhrəmanlıq nümunəsi sayılan döyüşlərdə itirilən insanların sayına və sosial mənşəyinə nəzər salanda mübarizənin bir ümumxalq mübarizəsi olduğuna heç bir şübhə qalmır. Bu döyüşdə əhalinin bütün təbəqələri iştirak edirdilər. Çoxlu sayda ziyalı həm vuruşur, həm də əsl vətənpərvərlik təbliğatını aparırdı. Bu da təbii ki, texniki imkanlar baxımından avropalılardan xeyli dərəcədə geridə olan türk ordusunun mənəvi qüdrətini və döyüş ruhunu nəzərəçarpacaq dərəcədə artırırdı. Pis silahlanmış, lakin son dərəcə döyüşkən və əzmkar olan türklərin o dövrün ən son hərbi nailiyyətlərindən istifadə edən avropalıları geri oturtması onların mərdlik və cəsurluğunun parlaq nümunəsi kimi qiymətləndirilməlidir. Təsadüfi deyildir ki, Çanaqqala savaşı bir qəhrəmanlıq dastanına çevrilib. Bu döyüşdə Osmanlı Türkiyəsi 253 min şəhid verdi. Döyüşdə əsas canlı qüvvə və texnika ilə iştirak edən ingilislər 205 min, fransızlar isə 47 min itkiyə məruz qaldılar. Bundan əlavə onların çoxlu sayda hərbi-texniki qüvvələri məhv edildi.

Çanaqqalada türk əsgərlərinin göstərdiyi mətinlik və cəsarət düşmən generallarını və siyasi xadimlərini belə heyrətə gətirmişdi. İngiltərənin baş naziri Uinston Çörçill "Türklər Çanaqqalada ən müasir silahlarla silahlanmış güclər qarşısında bir qala kimi dayanmışdılar", ingilis generalı Oqlander isə "Türk əsgərlərinin döyüşdə göstərdikləri igidliklərin nəzərə alınmaması ingilislər üçün fəlakət oldu" demişdilər.

## Çanaqqala savaşının iştirakçısı olan Azərbaycan könüllüləri

Çanaqqala savaşından bəhs edərkən Türk dünyasının həmrəyliyini xüsusi vurğulamaq lazımdır. Bu savaş yalnız Osmanlı Türkiyəsinin deyil, bütün Türk dünyasının savaşı idi.

O cümlədən hər zaman qardaşlıq ənənəsinə sadiq qalan Azərbaycan könüllüləri Çanaqqala döyüşünə qatılaraq Osmanlı əsgərləri ilə çiyin-çiyinə düşmən qüvvələrinə qarşı, vuruşmuşlar. Tarixi faktlara görə, 3 mindən çox azərbaycanlı türkçülük, İslam və Vətən uğrunda canlarından keçən 253 min məhmətçiklə eyni taleyi paylaşaraq qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

*Mübariz FEYİZLİ*

# 17 il öncə, bu gün...

## Ümumxalq səsverməsi nəticəsində Konstitusiyaya əlavə və dəyişikliklər edilib

*Nardar BAYRAMLI*

2009-cu il martın 18-də ölkəmizdə ümumxalq səsverməsi (referendum) keçirilməsindən 17 il ötür. Bu referendum gənc müstəqil Azərbaycanın hüquqi və demokratik dövlət quruculuğu yolunda mühüm mərhələlərdən biri hesab olunur. Referendum nəticəsində Azərbaycan Konstitusiyasının 29 maddəsinə əlavə və dəyişiklər edilib.

**Referendum YAP-ın təşəbbüsü ilə keçirilib**

Qeyd edək ki, Əsas Qanunda islahatların aparılması ilə bağlı təşəbbüs Yeni Azərbaycan Partiyasının deputat qrupu tərəfindən irəli sürülüb. Milli Məclis bu təşəbbüsü dəstəkləyib və 2008-ci il dekabrın 26-da "Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsi qəbul edilib. Referendumun keçirilməsi isə 18 mart 2009-cu ilə təyin olunub. Seçki kampaniyası başlandıqdan sonra seçicilərin maarifləndirilməsi, təklif edilən düzəlişlərin mahiyyətinin vətəndaşlara izah edilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib.




Belə ki, Referendum Aktının layihəsi rəsmi qəzetlərdə dərc edilib, Milli Məclisin və Mərkəzi Seçki Komissiyasının internet səhifələrində yerləşdirilib. Layihəyə uyğun olaraq Azərbaycan Konstitusiyasının ümumxalq səsverməsinə çıxarılmış hissələrinin MSK tərəfindən hazırlanmış müqayisəli təqdimatı seçicilərin sayı nəzərə alınmaqla çap edilib, seçki komissiyaları vasitəsilə 5 milyona yaxın vətəndaşın ünvanına çatdırılıb. Arzu edən şəxslərin həmin sənədləri əldə edə bilmələri üçün seçki məntəqələrində müvafiq şərait yaradılıb. Referendum Aktının layihəsi və MSK-nın hazırladığı müqayisəli təqdimat plakat şəklində də çap edilib, seçicilərin tanış olmaları üçün yaxşı görünən yerlərdə asılmaqla ölkə ərazisində mövcud olan bütün dairə və məntəqə seçki komissiyalarının ərazisində yayılıb.

Mərkəzi Seçki Komissiyasının üzvləri və Katibliyin əməkdaşları tərəfindən referendum prosesi və səsvermə prosedurları ilə əlaqədar geniş maarifləndirmə işi aparılıb. Bununla bağlı televiziya və radiolarda 100-dək çıxış olub, mətbuatda 120-dən çox məqalə dərc edilib, MSK tərəfindən çoxsaylı təlimat, qayda, izah, yaddaş və digər normativ aktlar qəbul olunub, mətbuat və internet vasitəsilə ictimailəşdirilərək maraqlı subyektlərin əldə etmələri üçün onlara lazımi şərait yaradılıb. Respublika və müvafiq seçki dairələri üzrə seçki komissiyalarının 31 mindən çox üzvünü və mütəxəssisini əhatə edən çoxsaylı müxtəlif növ konfranslar, seminar-müşavirələr və treninqlər keçirilib. Eləcə də, Azərbaycan Prezidentinin İcra Aparatı (indiki Administrasiya), Mərkəzi Seçki Komissiyası və ATƏT-in Bakı ofisi respublikanın Bakı, Gəncə və Şirvan şəhərlərində ölkənin bütün yerli icra hakimiyyəti başçılarının və dairə seçki komissiyaları sədrlərinin iştirakı ilə referendum prosesinə müdaxilənin yolverilməzliyinə dair regional məlumat sessiyaları keçiriblər.

**Ölkə üzrə 9 təşviqat qrupu fəaliyyət göstərib**

Bundan əlavə, Seçki Məcəlləsinə uyğun olaraq, referenduma çıxarılan məsələlərin lehinə və ya əleyhinə təşviqat aparmaq üçün Mərkəzi Seçki Komissiyasında 9, dairə seçki komissiyalarında isə 124 təşviqat qrupu qeydə alınıb. Həmin qruplar imzatoplama kampaniyası dövründə aktiv seçki hüququ olan 600 mindən çox vətəndaşı əhatə edərək referendumqabağı təşviqat prosesinə cəlb ediblər. Təşviqat kampaniyası dövründə bütün referendum subyektləri üçün bərabər imkan yaradılıb, qanunvericiliyə uyğun olaraq pulsuz efir vaxtından istifadə ediblər. Həmçinin, Seçki Məcəlləsinin və "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun tələblərinə uyğun olaraq, referendum üzrə təşviqat qruplarına seçicilərlə görüşlər keçirmək üçün respublikanın şəhər və rayonlarında 2478-i açıq, 2065-i qapalı olmaqla cəmi 4543 yer ayrılıb. Təşviqat kampaniyası müddətində referendum subyektləri həmin yerlərdə vətəndaşlarla 7 minədək görüş keçiriblər. 2009-cu il fevralın 18-də başlanmış təşviqat kampaniyası 27 gün davam edərək, martın 17-də başa çatıb. Aparılmış təhlillər həmin mərhələdən bütövlükdə səmərəli istifadə edildiyini, seçicilərin maarifləndirilməsi və referenduma çıxarılan məsələlərin vətəndaşlara dolğun çatdırılması yönündə əhatəli iş görüldüyünü təsdiq edir.

**Seçicilərin 71,8 faizi səsvermədə iştirak edib**

Qeyd edək ki, referendum 125 seçki dairəsi üzrə 5367 seçki məntəqəsində keçirilib. Azərbaycanın hüdudlarından kənarda 35 məntəqə fəaliyyət göstərib. Səsverməni 24 təşkilatı və 23 ölkəni təmsil edən 177 beynəlxalq müşahidəçi izləyib. O cümlədən, Avropa Şurası və Müstəqil Dövlətlər Birliyinin parlament assambleyaları, MDB-nin müşahidə missiyası, Böyük Britaniya, Fransa, İspaniya, Almaniya, Belçika, Bolqarıstan, Finlandiya, Ukrayna və digər ölkələrin parlament nümayəndə heyətləri, ABŞ, Rusiya, Norveç, İtaliya, Polşa və s. ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri də səsvermənin gedişini izləyiblər.

Xarici kütləvi informasiya vasitələrindən "Röyter"in 6, TRT-nin 3, Frans Press və EPA agentliyinin 2, Anadolu Agentliyinin, Bi-Bi-Si, Əl-Cəzirə, İhlas Haber Ajansı, "Blumberq" və "Le Fiqaro"nun hərəyə 1 nümayəndəsi referendumun gedişini işıqlandırmaq üçün Azərbaycanda olublar.

Referendumu müşahidə etmək üçün 47 min 66 yerli müşahidəçi qeydiyyata alınıb. Onların 2148-i MSK-da, 44918-i isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib. Səsvermənin şəffaflığını təmin etmək üçün 500 seçki məntəqəsində quraşdırılmış veb-kameralar MSK-nın rəsmi internet səhifələrinə qoşulmuşdu. Bu kameralar vasitəsilə məntəqələrdə səsvermənin gedişini Mərkəzi Seçki Komissiyasının internet saytlarında izləmək mümkün olub.

Referendum ölkənin bütün bölgələrini əhatə edən dairələrdə yüksək fəallıq şəraitində keçib. Belə ki, ölkə üzrə 4 milyon 893 min 382 seçicidən 3 milyon 478 min 571 nəfəri, yəni 71,08 faizi referendumda səs verib. Səsvermədə iştirak edən seçicilərin mütləq əksəriyyəti Konstitusiya dəyişikliklərini dəstəkləyib.

**Kamran Bayramov: Konstitusiya islahatları ölkəmizin inkişafında mühüm mərhələ oldu**

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Kamran Bayramov bildirib ki, ötən dövr ərzində hüquqi və demokratik dövlət quruculuğu istiqamətində inamlı addımlar atılıb. Onun sözlərinə görə, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən hərtərəfli islahatlar bütün sahələr üzrə dinamik inkişafı səciyyələndirib. 2009-cu ilin martında Konstitusiya dəyişikliklərini özündə ehtiva edən referendum da hüquqi, siyasi, iqtisadi sistemdə önəmli islahatları əks etdirib.

Millət vəkili qeyd edib ki, Konstitusiyanın 29 maddəsində edilən əlavə və dəyişikliklər böyük əhəmiyyət daşıyır: "Məsələn, Konstitusiyanın 96-cı maddəsinə əlavə edilib ki, seçki hüququ olan 40 min vətəndaş qanunvericilik təşəbbüsü ilə çıxış edə bilər. Bundan əlavə, hərbi əməliyyatlar zamanı keçirilməsi mümkün olmadıqda parlament və prezident seçkilərinin vaxtı uzadıla bilər. Yəni seçkilərin hərbi əməliyyatların başa çatmasından sonra keçirilməsi bu Konstitusya islahatlarında əksini tapır. Həmçinin referendum nəticəsində Əsas Qanunda bələdiyyələrin fəaliyyəti ilə bağlı da önəmli yeniliklər edilib. Bütövlükdə, həmin Konstitusiya dəyişiklələri ölkəmizdə insan hüquq və azadlıqlarının daha da gücləndirilməsinə, dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsinə və s. vacib məqsədlərə xidmət edir. Ötən dövr sübut etdi ki, sözügedən Konstitusiya islahatları həqiqətən də, çox zəruri idi", -deyən K.Bayramov əlavə edib ki, ən önəmli dəyişikliklər sırasında bir şəxsin iki dəfədən çox prezident seçilməsini məhdudlaşdıran maddənin Əsas Qanundan çıxarılması da var. Əslində, həmin maddə vətəndaşların seçilmək hüququnu məhdudlaşdırırdı. Ona görə də, referendum nəticəsində həmin müddəanın Konstitusiyadan çıxarılması təbii qanunauyğunluq idi.

"Bütövlükdə, Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan bu mühüm siyasi kampaniya beynəlxalq standartlara, demokratik seçki qanunvericiliyinə uyğun şəkildə keçirilib. Vətəndaşlarımız tamamilə azad, şəffaf, demokratik şəraitdə iradəsini ifadə ediblər. Referendumun nəticələri xalqın ölkə iqtidarına inamını bir daha əyani şəkildə nümayiş etdirdi. Bu, həm də Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin ölkə vətəndaşları tərəfindən birmənalı dəstəkləndiyini bir daha təsdiqlədi",-deyə millət vəkili vurğulayıb.



# Hörmüz boğazında dəniz koalisiyası mümkün olacaqmı?

## Kim gəlir, kim yox?

**Hər ötən gün İran-ABŞ-İsrail müharibəsi ilə bağlı yeni gəlişmələr ortaya çıxır. Müharibənin arealı hazırda bütün Yaxın Şərqi əhatə edir, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Eyni zamanda, daha uzaq coğrafiyalarda yerləşən ayrı-ayrı ölkələr və bütövlükdə dünya müharibədən bu və ya digər formada təsirlənir. Analitiklər narahatlıq doğuran proqnozlar səsləndirirlər. Bildirilir ki, müharibə uzandıqca onun dünyaya, xüsusilə də qlobal iqtisadiyyata mənfi təsirləri daha da artacaq. Hazırda müharibənin ən kritik məqamı isə Hörmüz boğazının faktiki olaraq bağlanması ilə əlaqədardır. Yaranmış vəziyyət o qədər ciddidir ki, bütün dünya bu dar keçiddə hadisələrin necə inkişaf edəcəyini böyük həssaslıqla izləyir.**

## Tehranın və Vaşinqtonun bir-biri ilə ziddiyyət təşkil edən mövqeləri

Beləliklə, Hörmüz boğazının təhlükəsizliyinin və funksionallığının təmin edilməsi bütün dünya üçün vazkeçilməz zərurət qismində çıxış edir. Ancaq müharibə tərəfləri olan İran və Amerika Birləşmiş Ştatları (ABŞ) bir-biri ilə ziddiyyət təşkil edən mövqe sərgiləməkdədirlər. Məlum olduğu kimi, bir neçə gün bundan əvvəl İranın yeni seçilmiş Ali Dini Lideri Ayətullah Müctəba Xamenei xalqa müraciət ünvanlayıb. O, müraciətində bildirib ki, Tehran düşmənə təzyiq göstərmək üçün Hörmüz boğazını bağlamaq qabiliyyətini qoruyub saxlamalıdır.

İranın digər rəsmilərindən də Hörmüz boğazı ilə bağlı açıqlamalar gəlməkdədir. Ölkənin xarici işlər naziri Abbas Əraqçi "Əl-Ərəbi Əl-Cədid"ə müsahibəsində bildirib ki, Hörmüz boğazı ABŞ və onun müttəfiqlərinin gəmiləri istisna olmaqla, hər kəs üçün açıqdır.

"İran Hörmüz boğazında təhlükəsizlik problemlərinin ölkənin hərəkətləri ilə deyil, Yaxın Şərqdə ümumi gərginliklə bağlı olduğunu bəyan edib". Bu fikri isə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi NDTV telekanalına müsahibəsində bildirib. Diplomat qeyd edib ki, "bütün regiona yayılan qeyri-sabitlik, təəssüf ki, Hörmüz boğazına qədər uzanır və bu, İranın günahı deyil".

O, həmçinin vurğulayıb ki, İrana qarşı hərbi əməliyyatlarda iştirak edən ölkələrin gəmiləri neytral hesab oluna bilməz. "Biz açıq şəkildə bildirmişik ki, beynəlxalq hüquqa əsasən, təcavüzkar ölkələrin gəmiləri Hörmüz boğazından keçə bilməz, çünki onların keçidi artıq dinc xarakter daşımır", - deyə sözçü qeyd edib.

İ.Bəqayi əlavə edib ki, İrana qarşı hərbi əməliyyatları dəstəkləyən gəmilərin boğazdan keçməsinə icazə verilməyəcək.

Tehraanın sərt ritorrikasına rəğmən, Vaşinqton boğazı tezliklə açıq, təhlükəsiz və azad edəcəyinə əminliyini bildirib.

Bu məqsədlə müttəfiq qüvvələri İranın donanmasına ciddi zərbələr endirib və bu ölkəyə məxsus onlarla gəmini batırmağa nail olub. O cümlədən ABŞ qüvvələri İranın Xark adasına genişmiqyaslı dəqiq zərbə endirib. ABŞ Mərkəzi Komandanlığının məlumatında bildirilir ki, zərbə nəticəsində dəniz mina anbarları, raket anbarları və bir çox digər hərbi obyektlər məhv edilib. Qeyd olunur ki, ABŞ qüvvələri neft infrastrukturunu qoruyub saxlamaqla Xark adasındakı 90-dan çox İran hərbi hədəfinə uğurla zərbə endirib.

## Hörmüz boğazı - qlobal daşımaların əsas arteriyalarından biri

Hörmüz boğazı qlobal enerji sisteminin "dar keçid" nöqtəsi, beynəlxalq daşımaların əsas arteriyalarından biri kimi səciyyələndirilir. Uzunluğu təxminən 150 kilometr olan bu boğaz bəzi yerlərdə cəmi bir neçə on kilometr enə malikdir və bu xüsusiyyət onu qlobal enerji nəqliyyatının ən həssas nöqtələrindən birinə çevirir. Fars körfəzini Oman körfəzi və Ərəbistan dənizi ilə birləşdirən Hörmüz boğazı körfəz ölkələrinin enerji resurslarınnın daşınması üçün ən optimal marşrut sayılır. Bu boğazdan neft axını gündə orta hesabla 21 milyon barel təşkil edir.

"Bloomberg" agentliyinin məlumatına görə, Hörmüz boğazında yaranan problemlərdən əsasən neft tankerləri zərər görüb. Qlobal neft və LNG daşımalarının təxminən beşdə biri bu boğaz vasitəsilə həyata keçirilir.

Bundan əlavə, Hörmüz boğazından keçidin azalması mədən sənayesi mallarının daşınmasında da azalmaya səbəb olub. Bu vəziyyətdən ən çox Körfəz və Afrika ölkələri təsirlənir. Agentliyin araşdırmasına görə, bölgədəki hadisələr nəticəsində Hindistanda alüminium və sement, həmçinin Hindistan, Türkiyə və Cənubi Afrikada qiymətli metal ixracatçıları risklə üzləşiblər. Körfəz boyu limanları olan ölkələr və qonşu limanlardan tranzit kimi istifadə edən digər Yaxın Şərq dövlətləri, eləcə də Körfəz regionu ilə ticarət aparan ölkələr Hörmüz boğazının bağlanmasından birbaşa zərər görürlər.

Eyni zamanda, bu hadisələr qeyri-neft ticarətinin təxminən 2,4 faizini də risk altına alır. Körfəz dövlətləri qiymətli metallar, alüminium və sementin böyük ixracatçısı olduqlarından qlobal idxalçıların 4-7 faizi risklə üzləşir.

G20 ölkələri arasında Hindistan, Türkiyə, Cənubi Afrika və Argentinanın qeyri-neft ixracatının ən azı 4 faizi risk altındadır. Vəziyyət hələ də qeyri-sabitdir və təsirin miqyası Hörmüz boğazının faktiki bağlı qalma müddətindən asılı olacaq.

"Financial Times" nəşri yazır ki, İran ətrafında davam edən müharibə səbəbindən karbamid ( kənd təsərrüfatında bitkilərin məhsuldarlığını artırmaq üçün istifadə olunan əsas azot gübrələrindən biri) tədarükündə ciddi problemlər yaranıb və bu, qlobal təchizat zəncirinə təsir göstərməyə başlayıb. Bildirilir ki, hazırda Fars körfəzində 1,1 milyon tondan çox karbamid yüklü gəmi gözləmə vəziyyətində qalıb. Bunun əsas səbəbi isə dünya gübrə ixracı üçün strateji əhəmiyyət daşıyan Hörmüz boğazında yaranmış blokadadır. Qeyd edək ki, qlobal karbamid ixracının təxminən üçdə biri məhz bu boğazdan keçir və bölgədəki hərbi gərginlik logistika zəncirini ciddi şəkildə pozur.

Bəzi pozulmuş ticarət axınları alternativ marşrutlara yönləndirilə bilər ki, bu da dəniz yollarında sıxlıq yaradaraq daşımaların qiymətinə təsirsiz ötüşməyəcək. Eyni zamanda, Qırmızı dənizdə husilərin hücumlarının təkrarlanma ehtimalı daşımalarda yaranmış problemi daha da dərinləşdirir. Hava məkanlarının bağlı qalması isə hava yükdaşımasına mənfi təsir göstərir.

## NATO-nun tərəddüdləri, Aİ-nin "yox" cavabı

ABŞ Prezidentinin müraciətinə NATO-dan tərəddüdlü cavab gəlib. NATO-nun yaydığı açıqlamaya görə, Alyans bölgədə gedən savaşı yaxından izləyir və lazımi addımları da atıb: "NATO Aralıq dənizində əlavə təhlükəsizlik tədbirləri görüb. Əlavə nə edə biləcəyimizi də üzv ölkələrlə müzakirə edirik", - deyə qurumun cavabında bildirilir.

Avropa İttifaqı (Aİ) isə D.Trampın çağırışına birmənalı şəkildə "yox" cavabı verib. "Avropa İttifaqına üzv ölkələr özlərinin "Aspides" hərbi-dəniz missiyasının mandatını genişləndirməyi və Hörmüz boğazından keçən gəmiçiliyi dəstəkləmək üçün ora gəmilər göndərməyi zəruri hesab etməyiblər". Bunu Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Xarici İşlər Şurasının yekunlarına dair mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, iclasda Aİ-nin xarici işlər nazirləri Fars körfəzi regionunda, xüsusən İran tərəfindən bloklanmış Hörmüz boğazında gəmiçiliyin daha səmərəli qorunması variantlarını müzakirə ediblər.

"Müzakirələrimiz zamanı bu əməliyyatı gücləndirmək üçün aydın istək səsləndi. Lakin hazırda "Aspides" əməliyyatının mandatını dəyişdirmək istəyi yoxdur. Nazirlərin fikrincə, Hörmüz boğazının diqqət mərkəzində olmasına baxmayaraq, Qırmızı dəniz də kritik dərəcədə vacib olaraq qalır", - deyə K.Kallas vurğulayıb. O, əlavə edib ki, Aİ nümayəndələrinin əksəriyyəti özlərinin başlamadığı müharibəyə müdaxilə etmək istəmirlər.

Aİ ilə yanaşı, qurumda təmsil olunan və təmsil olunmayann ayrı-ayrı ölkələr də Hörmüz boğazına donanma göndərmək niyyətində olmadıqlarını birmənalı şəkildə bəyan ediblər. Fransanın Silahlı Qüvvələr naziri Ketrin Votrin "France 24" telekanalına müsahibəsində bildirib ki, hazırda Hörmüz boğazına hər hansı gəmi göndərmək barədə heç bir plan yoxdur. Böyük Britaniyanın Baş naziri Kir Starmer ölkəsinin İranda daha geniş müharibəyə cəlb olunmayacağını bildirib. Bu mövqe ABŞ Prezidenti Donald Trampın tənqidinə səbəb olub. O, hətta Britaniya liderinə xitabən "Çörçill deyil" ifadəsini işlədib.

Almaniyanın xarici işlər naziri Yohan Vadeful da ölkəsinin Hörmüz boğazının təhlükəsizliyinin təmin edilməsində iştirakının hazırda nəzərdə tutulmadığını açıqlayıb. Nazir ARD televiziyasına açıqlamasında belə bir əməliyyat üçün hazırda təcili zərurət görmədiyini bildirib. Almaniya rəsmisi Hörmüz boğazında və Qırmızı dənizdə təhlükəsizliyin yalnız danışıqlar yolu ilə təmin oluna biləcəyini vurğulayıb.

İtaliya da Hörmüz boğazının açılması və tam fəaliyyətinin bərpası üçün Aİ-nin dəniz missiyasının cəlb edilməsinə qarşı çıxıb. Bu barədə İtaliyanın xarici işlər naziri Antonio Tayani Brüsseldə Aİ Xarici İşlər Şurasının iclasından əvvəl jurnalistlərə açıqlamasında deyib.

Vaşinqtonun kömək müraciətinə "yox" cavabları həmçinin Yunanıstan, Yaponiya, Avstraliya kimi ölkələrdən gəlib. İspaniyanın cavabı isə daha kəskin olub. Bu ölkənin müdafiə və xarici işlər nazirləri bildiriblər ki, İspaniya ABŞ və İsrailin İrana qarşı apardığı müharibəni qeyri-qanuni hesab etdiyi üçün Hörmüz boğazında hər hansı hərbi missiyada iştirak etməyəcək. Müdafiə naziri Marqarita Robles ABŞ Prezidenti Donald Trampın boğazda təhlükəsizliyi təmin etmək üçün hərbi dəstək tələbi və bunu etməyən NATO müttəfiqlərini "çox pis gələcək"lə hədələməsini rədd edib."İspaniya heç vaxt müvəqqəti tədbirləri qəbul etməyəcək, çünki məqsəd müharibənin bitməsi olmalıdır və bu, dərhal baş verməlidir", - deyə Robles bildirib.

Xarici işlər naziri Xose Manuel Albares isə deyib ki, boğazdakı vəziyyət avropalılar üçün ciddi narahatlıq doğurur, lakin Avropa İttifaqının mövqeyi iqtisadi səbəblərdən asılı olmayaraq müharibənin dayandırılması olmalıdır. O, Brüsseldə jurnalistlərə bildirib: "Biz gərginliyi daha da artıracaq və ya vəziyyətin daha da kəskinləşməsinə səbəb olacaq heç nə etməməliyik".

Beləliklə, dünya ölkələri Vaşinqtonun Hörmüz boğazında keçidin sərbəstliyini və təhlükəsizliyini təmin etmək üçün kömək müraciətinə "hə" cavabı verməyə tələsmirlər. Bu reallıq fonunda sual yaranır: Hörmüz boğazında dəniz koalisiyasını təşkil etmək, ümumiyyətlə, mümkün olacaqmı?

## ABŞ-nin dünya ölkələrinə kömək müraciəti

Ancaq hadisələrin inkişafı onu deməyə əsas verir ki, Vaşinqton Hörmüz boğazında təhlükəsiz keçidi təkbaşına təmin etməyin çətin olacağının fərqindədir. Buna görə də Prezident Donald Tramp Hörmüz boğazı vasitəsilə daşımalar həyata keçirən ölkələrə müraciət ünvanlayaraq keçidin açıq və təhlükəsiz saxlanılmasına kömək göstərmələrini istəyib. "Biz Hörmüz boğazında 30-dan çox mina yerləşdirmə gəmisi məhv etməklə İranın kommersiya gəmiçiliyini təhdid etmək qabiliyyətini məhdudlaşdırmışıq. İqtisadiyyatı bizimkindən daha çox boğazdan asılı olan digər ölkələrə qətiyyətlə çağırış edirik. Bilirsiniz, biz neftimizin 1 faizdən azını boğazdan alırıq. Bəzi ölkələr isə daha çoxunu əldə edir. Ona görə də istəyirik ki, gəlib bizə kömək etsinlər", - deyə Tramp müraciətində bildirib.

D.Tramp Hörmüz məhdudiyyətdən təsirlənən Çin, Fransa, Yaponiya, Cənubi Koreya, Böyük Britaniya kimi ölkələrin Hörmüz boğazının təhdid altında olmaması üçün əraziyə gəmilər göndərəcəklərinə ümidvar olduğunu da diqqətə çatdırıb. O, eyni zamanda, NATO müttəfiqlərini Hörmüz boğazının təhlükəsizliyini təmin etməyə kömək göstərməyəcəkləri təqdirdə "çox pis bir gələcək" ilə üzləşə biləcəkləri barədə xəbərdar edərək, onları Avropanın əsas dəniz dəhlizini yenidən açmaq üçün Amerikanın səylərini dəstəkləməyə çağırıb. Fikirlərinə davam edən D.Tramp vurğulayıb: "Boğazdan faydalanan insanların orada pis proseslərin baş verməməsini təmin etmək üçün köməklik göstərməsi tamamilə doğru addımdır. Əgər cavab verilməsə və ya mənfi cavab verilsə, düşünürəm ki, bu, NATO-nun gələcəyi üçün heç də yaxşı olmayacaq".

ABŞ lideri müttəfiqlərin mina gəmiləri kimi dəniz aktivlərinə töhfə verə biləcəyini deyib və əlavə edib ki, Avropanın ABŞ ilə müqayisədə daha çox gəmisi var

Eyni zamanda, ABŞ-nin enerji katibi Kris Rayt da dövlət başçısının çağırışına qoşulub. O bildirib ki, Hörmüz boğazında gəmiçiliyin məhdudlaşdırılmasına qarşı Trampın döyüş gəmiləri göndərməsini ümid etdiyi bəzi ölkələrlə dialoqda olub. Kris Rayt hansı ölkələrlə danışıqlar apardığını açıqlamayıb. O qeyd edib ki, bir çox digər ölkələr, xüsusən də Asiya ölkələri ABŞ-yə nisbətən boğazdan keçən enerji təchizatından daha çox asılıdır.

"Əlbəttə ki, bütün dünya Hörmüzün açılması üçün birləşəcək və bu məqsədə çatmaq üçün digər ölkələrin dəstəyini qazanacağıq", - deyə ABŞ-nin enerji katibi vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# “Drujba” açılmasa...

## Ukrayna imtina edir, Macarıstan veto qoyur...

Rusiya-Ukrayna müharibəsi fonunda Avropanın enerji təminatı məsələsi əsas müzakirə predmetlərindəndir. Qeyd edək ki, son dövrlərdə Aİ-nin Ukranaya yardımlarına qoyulan təşkilatdaxili vetoların da əsasında məhz bu məsələ dayanır. Belə ki, veto hüququndan aktiv şəkildə istifadə edən Macarıstan və Slovakiya rəsmi Kiyevi “Drujba” neft kəmərinin bərpası ilə bağlı müzakirələrə dəvət etsə də, qarşı tərəfin imtinası ilə qarşılaşırlar. Bu dəfə də eyni hal yaşanıb - Macarıstan və Slovakiya “Drujba” neft kəmərinin bərpası ilə bağlı Ukraynanın energetika naziri ilə görüş keçirməyi təklif etsələr də, Kiyev bundan imtina edib. Macarıstanın xarici işlər və iqtisadi əlaqələr naziri Peter Siyyarto Avropa İttifaqı XİN rəhbərlərinin görüşü əsnasında bunu Brüsseldə deyib. “Biz bu gün Brüsseldə Ukraynanın energetika naziri ilə üçtərəfli görüş keçirməyi təklif etdik, lakin Ukrayna tərəfi son anda geri çəkildi”, - deyə Peter Siyyarto jurnalistlərə bildirib. Nazirin sözlərinə görə, bu, “Drujba” kəmərinin texniki cəhətdən etibarlı olduğunu və Ukraynanın onu yalnız siyasi səbəblərə görə bağladığını sübut edir. “Kiyev bizə qarşı neft blokadasını davam etdirəcəksə, biz də Brüsselin onlara fayda verəcək heç bir qərarını dəstəkləməyəcəyik”, - deyə nazir vurğulayıb.

### Ukrayna icazə vermədi...

Siyyarto bildirib ki, Ukrayna “Drujba” boru kəməri vasitəsilə Rusiya neftinin tədarükünü dayandırmağa davam edir. O əlavə etdi ki, Kiyev, həmçinin ötən həftə Kiyevdə olan Macarıstanın energetika nazirinin müavini Qabor Çepekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşməkdən də imtina ediblər. Xatırladaq ki, bu nümayəndə heyətinə Aİ, Macarıstan və Slovakiya mütəxəssisləri daxil idi və həmin nümayəndə heyəti boru kəmərinin yoxlanılmasına icazə istəmişdi. Siyyartonun fikrincə, bu davranış Ukraynanın “Drujba” boru kəmərinin texniki cəhətdən işlək olduğunu, sadəcə, Ukraynanın onu siyasi səbəblərdən bloklamağa davam etdiyini sübut edir.

### Almaniya da təzyiq edir...

Siyyarto, həmçinin Aİ daxilindəki müzakirələrdə də ikitərəfli münasibətin ortaya qoyulduğunu bildirib. Onun sözlərinə görə, Macarıstan tərəfi Aİ XİN başçılarının görüşündə Ukraynanın “Drujba” boru kəməri vasitəsilə Rusiya neftinin tədarükünü bərpa etmək ehtiyacı məsələsini qaldırıb. Onun sözlərinə görə, Ukraynanın davranışı Aİ-də yumşaq qarşılanır, Macarıstanın mövqeyi isə Almaniya xarici işlər nazirinin qəzəbinə səbəb olub. Macarıstan xarici işlər naziri qeyd edib ki, o, bu vəzifədə 11 ildir çalışır, lakin bu, onun belə bir vəziyyətlə ilk dəfə qarşılaşmasıdır. Siyyarto qeyd edib ki, bu təhdidlər Macarıstan hökumətini Ukraynaya yanaşmasını dəyişdirməyə məcbur etməyəcək.

### Yeni kəmər razılaşması...

Qeyd edək ki, artıq Macarıstan və Slovakiya yeni neft kəməri barədə razılığa gəliblər. Belə ki, müqavilə Macarıstan və Slovakiya tərəfindən Bratislava və Sazxalombatte neft emalı zavodlarını birbaşa birləşdirəcək benzin və dizel yanacağının daşınması üçün yeni boru kəmərinin tikintisini özündə ehtiva edir. Bu xətt Rusiyanın Ural xam neftindən istifadə edən Macarıstanın MOL şirkətinə məxsus neft emalı zavodlarını birləşdirir. Sazxalombatte qurğusu, həmçinin Macarıstanın dəniz yolu ilə Rusiya neftini almağa ümid etdiyi Xorvatiyadan Adriatik dənizi boru kəmərinə bağlıdır.

### AK vəziyyətdən xəbərdardır

Avropa Komissiyası isə Kiyevin 27 yanvar tarixindən bəri Macarıstan və Slovakiyaya neft tədarükü dayandırılan “Drujba” boru kəmərində təmir işlərinin başlanması barədə məlumat verdiyini açıqlayıb. Avropa Komissiyasının enerji komissarı Dan Yorgensen bildirib ki, bununla bağlı Ukrayna nümayəndə heyəti ilə görüşü olub: “Onlar boru kəmərini mümkün qədər tez təmir etmək üçün çalışdıqlarını söylədilər”.

Qeyd edək ki, yanvar ayının sonunda Macarıstana “Drujba” boru kəməri vasitəsilə Rusiya neftinin ixracı dayandırılıb. Ukrayna bunu boru kəmərinin zədələnməsi və təmiri ilə əlaqələndirib. Budapeşt isə bu səbəblərin doğruluğuna şübhə ilə yanaşır.

Fevralın ortalarında isə “Drujba” boru kəməri vasitəsilə Slovakiyaya da yanacaq nəqli dayandırılıb. Baş nazir Robert Fiko Ukrayna prezidenti Volodimir Zelenskinin boru kəmərinin vəziyyətini yoxlamaqdan imtina etdiyini bildirmişdi. Avropa Komissiyası isə yoxlama komitəsinin yaradılmasını təklif edib. Martın əvvəlində Zelenski bildirib ki, əgər Aİ ölkələrinin Kiyevə verəcəyi 90 milyard avroluq kreditin bloklanmaması üçün Ukrayna altı həftə ərzində Macarıstan və Slovakiyaya neft tranzitini bərpa edə bilər.

### Kiyev haqlıdırmı?

Ekspertlərin fikrincə, “Drujba” boru kəməri ilə neftin ixracı Rusiyanın maliyyə vəziyyətinə müsbət təsir göstərdiyi üçün Kiyev bu addımı atır. Bir çox Qərb siyasətçisi Ukraynanın heç bir halda “Drujba” boru kəməri ilə neft tədarükünü bərpa etməməli olduğu düşüncəsindədir. Çünki bu kəmərin son 4 ildə işləməsi Moskvaya 20 milyard avro qazandırıb. Ukraynanın mövqeyini dəstəkləyən politoloqların fikrincə, Ukrayna ilə Aİ arasında imzalanan Assosiasiya Sazişinin 276-cı maddəsində forsmajor halında Ukraynanın enerji tranzitini dayandırmaq hüququ olduğu göstərilir. Müharibəni də məhz belə bir fors-major hal kimi dəyərləndirənlər, Kiyevin haqlı olduğunu iddia edirlər.




### Dünyanın ən böyük magistral neft boru kəməri sistemi...

Qeyd edək ki, “Drujba” dünyanın ən böyük magistral neft boru kəməri sistemidir. Kəmər 1960-cı illərdə Sovet İttifaqı istehsal müəssisəsi olan “Lengazspetsstroy” tərəfindən Volqa-Ural neft və qaz yataqlarından neft Qarşılıqlı İqtisadi Yardım Şurasının üzvü olan sosialist ölkələrinə: Macarıstan, Çexoslovakiya, Polşa və Şərqi Avropada yerləşən ADR-ə çatdırmaq üçün inşa edilmişdi. Boru kəməri marşrutu Almetyevskdən Bryanska, daha sonra Mozıra qədər uzanır və bundan sonra iki hissəyə bölünür: şimal hissəsi Belarus, Polşa, Almaniya, Latviya və Litvadan keçir, cənub hissəsi isə Ukrayna, Çexiya, Slovakiya, Macarıstan və Xorvatiyanı əhatə edir. Sovet İttifaqı dövründə boru kəmərinin Sovet hissəsinin idarəetmə mərkəzi Lvov şəhəri idi. SSRİ-nin dağılmasından sonra Bryansk Rusiya hissəsinin idarəetmə mərkəzinə çevrilib.

Sistem 8900 km boru kəmərindən (o cümlədən Rusiyada 3900 km), 46 nasos stansiyasından və 38 ara nasos stansiyasından ibarətdir ki, onların çən parkları 1,5 milyon kubmetr neft saxlayır. Boru kəməri hər il MDB xaricinə 66,5 milyon ton, o cümlədən şimal qolu vasitəsilə 49,8 milyon ton neft ixrac edir.

2006-cı ilin iyul ayında kəmərin Bryansk bölgəsindəki Uneça - Polotsk-1 və 2 hissələrində qəza baş verdi. Boru kəmərinin zədələnmiş hissəsinin yoxlanılmasından sonra “Drujba” boru kəmərinin şimal qolu vasitəsilə neft nəqlini tamamilə dayandırmaq qərara alındı. Rusiya - Ukrayna müharibəsi isə kəmərin cənub xəttini təhdid altında qoyur. Cənub xəttindəki hazırkı bağlanma da ilk deyil - 2022-ci ilin noyabrında kəmər elektrik kəsilməsindən sonra bağlanıb. Bir neçə gün sonra isə “Drujba” boru kəməri vasitəsilə tədarük bərpa olunub. Eyni zamanda, 2023-cü ilin fevral ayında Rusiya “Drujba” boru kəməri vasitəsilə Polşaya (Orlen) neft tədarükünü dayandırıb.

**P.İSMAYILOV**

# Ana qonan kəpənək

## İvan Turgenevin “Asya” povesti haqqında

*əvvəli ötən saylarımızda*

Asya diz üstə çöküb hönkürür, N.N. onu yerdən qaldırmaq istəyəndə qız sivişib otaqdan çıxır. Bütün bunlar, bu görüş səhnəsi qəhrəmanın gözü qarşısından qızdırmalı adamın sayıqlaması kimi keçir. Gedəgedə özünü danlayır ki, nahaq yerə Asyanın xətrinə dəydi, nahaq onu əlindən buraxdı:

“Şəhərdən çıxıb çölə tərəf üz qoydum. Quduz bir hiddət içimi gəmirirdi, başımdan məzəmmət yağdırırdım. Necə olmuşdu ki, mən Asyanı görüş yerini dəyişməyə vadar eləyən səbəbi anlamamışdım, bu qarının yanına gələnəcən onun nə qədər iztirab çəkdiyini qanmamışdım, onu tutub saxlamamışdım! İkimizdən başqa heç kəsin olmadığı yarıqaranlıq otaqda onu özümdən qoparmağa, hətta danlamağa gücüm, cəsarətim necə çatmışdı!.. İndi isə onun surəti məni qarabaqara izləyir, mən ondan dönə-dönə üzr istəyirdim; o solğun çöhrəni, o nəm ürkək gözləri, əyik boyuna dağılmış o gur saçları, başının sinəmə yüngülcə toxunuşunu xatırladıqca od tutub yanırdım. “Sizinəm...” deyə pıçıldadığını eşidirdim. “Mən vicdanlı davranmışam” deyib özümə təsəlli verirdim... Yalandır! Məgər mən işin məhz belə qurtarmağınımı istəyirdim?..”

N.N. qaranəfəs Qaginlərin evinə gedir, məlum olur ki, Asya evə qayıtmayıb. Bir qədər gözləyəndən sonra Qaginlə N.N. qoşalaşıb Asyanı axtarmağa yollanırlar, az getmiş şərtləşirlər ki, hərəsi bir səmti tutsun, bir saatdan sonra ayrıldıqları yerdə görüşsünlər.

N.N. gəzdiyi yerlərdə Asyanı tapmır. Qorxu, peşmanlıq, sevgi - bu qarışıq duyğular hamısı bir yerdə vücudunu sarıb onu təntidir, qəhrəmanımız qızı gəzəgəzə ona sevgi, sədaqət andı içir, xəyalən bir büt kimi onun qarşısında tövbə eləyir. Qaginlərin evinə qayıdanda N.N. öyrənir ki, Asya artıq otağında əynini dəyişir. O, pəncərədən Qaginlə danışıb nəyisə aydınlaşdırmaq istəyir, ancaq Qagin söhbəti sonraya saxlayıb onunla vidalaşır:

“Pəncərə örtüldü. Özümü pəncərəni döyməkdən güclə saxladım. Elə oradaca Qaginə demək istəyirdim ki, bacısıyla evlənmək istəyirəm. Di gəl, günün o çağında bu sayaq elçilik... Fikirləşdim ki, qoy sabaha qalsın, sabah mən xoşbəxt olacağam...

Sabah mən xoşbəxt olacağam! Xoşbəxtliyin nə sabahı, nə dünəni var; o, keçmişi xatırlamır, gələcəyi düşünmür, onun yalnız indisi var, o da heç bir gün də yox, cəmisi bir an çəkir.

Z.-yə necə gəlib çatdığımı xatırlamıram. Məni ayaqlarım daşımamışdı, qayıq gətirməmişdi; məni gen açılmış bir cüt güclü qanad havaya qaldırmışdı. Bülbülün ötdüyü kolun yanından keçəndə dayanıb uzun-uzadı qulaq verdim: mənə elə gəldi ki, bu bülbül mənim sevgimdən, səadətimdən dəm vurur”.

***

Sabahı gün Qaginlərə gedəndə qulluqçu ona deyir ki, qonaqlar səhər saat altıdan yola çıxıblar; hara getdiklərini deməyiblər, ancaq evə cənab N.N.-ə çatası bir məktub da qoyublar. Məktubda Qagin Asyanın təkidiylə xəbərsiz getdiklərinə görə üzrxahlıq eləyir, ayrılmağın zəruri olduğuna qəti şəkildə inandığını vurğulayır: “Sonda o, tanışlığımızın belə tez bitdiyinə təəssüfləndiyini yazır, mənə xoşbəxtlik diləyir, əlimi dostcasına sıxıb yalvarırdı ki, onları axtarmağa girişməyim”.

N.N.-in ağlına ilk bu gəlir ki, Qaginlərin izinə düşsün. Aralanmaq istəyəndə ev sahibəsi alman qadın ona daha bir məktub verir. Bu məktubsa Asyadandır:

“Əlvida, bir daha görüşməyəcəyik. Qürurum üzündən getmirəm - yox, mən ayrı cür davrana bilməzdim. Dünən sizin qarşınızda ağlayanda bircə kəlmə, tək bir söz desəydiniz - qalardım. Siz o sözü dilə gətirmədiniz. Görünür, belə məsləhətdir... Həmişəlik əlvida!”

N.N. xəbər tutur ki, Qaginlər gəmiylə Kölnə üzüblər, özü də ora üzən gəmiyə bilet alır. Kölndə öyrənir ki, Asyagil Londona gediblər, onlardan bir soraq almaq üçün Londona üzür. Qaginlərin izinə düşməyə nə qədər çalışsa da, onların yerini nişan verən tapılmır. Nakam aşiq uzun müddət dinclik tapmasa da, axır əlini üzüb axtarışdan əl çəkir:

“Mən onları bir də görmədim - Asyanı görmədim. Onun haqqında mənə dumanlı xəbərlər gəlib çatırdısa da, məndən ötrü Asya biryolluq yoxa çıxmışdı. Heç onun sağ olub-olmadığını da bilmirdim...

Boynuma alıram, Asyanın dərdini uzun müddət çəkmədim: hətta bu qənaətə gəldim ki, tale məni Asyaya qovuşdurmamaqla yaxşı iş tutub; özümə bununla təskinlik verirdim ki, belə bir arvadla mən xoşbəxt olmazdım. Onda mən cavan idim, ona görə də gələcək - çaparaq gəlib keçən qısa gələcək mənə intəhasız görünürdü. Məgər olub keçənlər təkrarlana bilməzmi - düşünürdüm - özü də daha yaxşı, daha gözəl şəkildə?.. Mən başqa qadınlar da tanıdım, ancaq Asyanın məndə oyatdığı duyğu - o yandırıb-yaxan zərif, dərin hiss yenidən yaşanmadı...

Mən taleyinə məhkum kimsəsiz bir subay kimi ömrümdən qalan cansıxıcı illərimi yaşayıb qurtarmaqdayam, ancaq Asyanın məktublarını, bir zaman pəncərədən mənə atdığı gül budağının üstündəki qurumuş çiçəkləri tutiya kimi hələ də qoruyub saxlayıram. O çiçəklər indiyəcən xəfifcə ətir saçır, fəqət onu mənə verən əl - dodağıma bircə kərə sıxdığım o əl bəlkə də çoxdan məzarda çürüyür...

Bəs mən özüm - mənim axırım nə oldu? Bəs məndən - həyəcan dolu o bəxtiyar günlərdən, o qanadlı ümidlərdən, istəklərdən nə qaldı? Beləcə, bütün sevincləri, dərdləriylə insan ömrü miskin bir otun saçdığı ölgün qoxunun ömründən də gödəkdir”.

Sonuncu cümlə elə bil “Atalar və oğullar” romanının epiloqunun proloqu, müqəddiməsi, prelüdiyasıdır. Bu povestin sonunda xatırlanan qurumuş otun-çiçəyin varisləri o romanın sonunda həyata, insana, yoxluğa daha uca səslə meydan oxuyacaqlar...

***

İşıq üzünə çıxarılandan sonra “Asya” rus ədəbi mühitində hadisəyə çevrilmişdi, indi klassik sayılan bir çox böyük qələm adamı ədəbi nəşrlərin səhifələrində də, yazışmalarında, çıxışlarında povestə münasibətini sərgiləmişdi. Bunlardan ən məşhuru sosializm ideyasına mübtəla inqilabçı-demokrat, solçu dairələrdə aktuallığını bu gün də itirməmiş “Nə etməli?” romanının müəllifi, materialist filosof, yazıçı, tənqidçi, publisist Nikolay Çernışevskinin “Rus centlmeni randevüdə” adlı məqaləsidir.

Çernışevski həmin məqalədə povesti öz fəlsəfi-estetik platformasına uyğun şəkildə ictimai-siyasi aspektdən təhlil eləyir, əsərdəki sevgi münasibətini sosial münasibətlər müstəvisinə köçürüb o kontekstdə nəzərdən keçirir, beləliklə də, povestin həssas qəlbli təhkiyəçi qəhrəmanını mənəvi iflasa uğramış rus dvoryan silkinin tipik nümayəndəsi, hətta timsalı kimi ağır ifadələrlə yıxıb sürüyür. Bu yanaşmasıyla Çernışevski nifrət bəslədiyi qərbmeyilli aristokratiyadan, liberal ziyalı cəbhəsindən, ilk növbədə elə Turgenevin özündən sanki intiqam alır, necə deyərlər, düşməni özünün silahıyla vurur. Üstəlik də, yazıçını ədəbi diskussiya arenasından ayırıb siyasi polemika meydanına çəkməyə çalışır.

Yaxşı yadımızdadır ki, dərin bədii-fəlsəfi mətnə buna bənzər vulqar-sosioloji yanaşmanı “Oblomov” romanı haqqında yazdığı məqalədə eyni ictimai-siyasi mülahizəylə Dobrolyubov da sərgiləmişdi. Bu kimi tendensiyalar bədnam, kütbeyin rus bolşevizminin erkən təzahürləri, qanlı edam kötüklərinə çevriləcək qart ağacların növcavan fidanları, erkən cücərtiləriydi. İnsanpərvər sənətə, humanist fəlsəfəyə, abırlı ziyalıya patoloji nifrət bəsləyən Lenin məhz bu tendensiyadan ilhamlanmaqla Lev Tolstoy kimi peyğəmbəri də inqilabçı çıxarmış, onu qanlı terrorun ideya dəDələrindən biritək qələmə verməyə çalışmışdı.

Turgenev belə yozumlardan, bu sayaq qərəzli təhlillərdən xoşlanmaz, qarağurhçu kütlənin onun başına qoymaq istədiyi mübarizə çələngini kübar səbriylə geri itələyərdi. Dağadaşa düşməyə hacət yoxdur - İvan Sergeyeviçin niyyəti çox saf, çox da sadədir. Onun yazıçı məramı, ədəbifəlsəfi mesajı ta antik dövrlərdən - “ağlayan filosof” Heraklit kimi, “gülən filosof” Demokrit kimi qədim müdriklərin məktəblərindən üzübəri yol gəlib, bu gün də gəlməkdədir: dünya - təsadüfi görüş yeridir, ömür - kəpənək ömrüdür, həyat - vur-tut bir andır, o da bu andır. İnsan - andanana qonan, dondan-dona girən kəpənəkdir. Çünki anı tutub saxlamaq olmur.

“Asya”nın qəhrəmanı da o təkrarsız anı əldən buraxdı, sonra dalınca ha qaçdısa, tuta bilmədi. Dünya adlı görüş yerində həyat ona qismətini yetirmişdi, qızıl sinidə qarşısına gətirmişdi, ancaq qəhrəmanımız qismətini selə verdi. İndi çoxumuz kimi ona da şütüyüb axan çayın arxasınca baxmaq qalıb. Demişdilər axı bir suya iki dəfə girmək olmaz...



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Ramazan ayı 28-ci günün duası

**"Allahummə vəffir həzzi fihi minən-nəvafil. Və əkrimni fihi bi-ihzaril-məsail. Və qərrib fihi vəsiləti ileykə min beynil-vəsail. Ya mən yəşğəluhu ilhahul-mulihhin".**

**Tərcüməsi:**

**"İlahi, bu gün mənə yaxşı əməllərin bəhrəsini bol et! İstəklərimi yerinə yetirməklə mənə kəramət göstər! Sənə yetmək üçün yollar içindən seçdiyim yolu özünə yaxın et! Ey israr edənlərin öz israrları ilə məşğul edə bilmədikləri Allah!"**

# Daha 82 ailə...

**Bu gün xalqımızın həyatında ən mühüm və qürurverici proseslərdən biri işğaldan azad edilmiş ərazilərə qayıdışdır. Bu qayıdış sadəcə köç deyil, tarixə yazılan yeni bir mərhələdir. Deməli olar ki, hər gün azad olunmuş torpaqlarımıza köç karvanı yola salınır. Bu karvanlar illərlə torpaq həsrətində olan insanların arzularını daşıyır. Hər avtobusun pəncərəsindən baxan gözlərdə eyni sual, eyni ümid var: "Görəsən, kəndim məni necə qarşılayacaq?".**

## Bir gündə 3 ünvan...

Dünən Ağdərə rayonunun Çıldıran, Aşağı Oratağ, Heyvalı və Çapar, Xocavənd rayonunun Xocavənd, həmçinin Cəbrayıl rayonunun Horovlu kəndlərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Ağdərə rayonunun Çıldıran kəndinə 3 ailə (13 nəfər), Aşağı Oratağ kəndinə 21 ailə (108 nəfər), Heyvalı kəndinə 7 ailə (34 nəfər), Çapar kəndinə 4 ailə (17 nəfər), Həsənriz kəndinə 6 ailə (29 nəfər), Xocavənd rayonunun Xocavənd kəndinə 11 ailə (36 nəfər), həmçinin Cəbrayıl rayonunun Horovlu kəndinə 30 ailə (131 nəfər) köçürülür.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhat olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

## Fərqli istiqamətlərdə aparılan hərbi əməliyyatlar

Məlumdur ki, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi Azərbaycan tarixində mühüm dönüş nöqtəsi idi. Müharibə nəticəsində uzun illər işğal altında qalan bir sıra ərazilər, o cümlədən Ağdərə, Xocavənd və Cəbrayıl rayonları azad edildi. Hər üç rayonun azad olunması fərqli istiqamətlərdə aparılan hərbi əməliyyatlar nəticəsində mümkün olub.

Cəbrayıl rayonu müharibənin ilk günlərindən etibarən əsas hücum istiqamətlərindən biri idi. Azərbaycan Ordusu cənub cəbhəsində sürətli və planlı əməliyyatlar həyata keçirərək düşmənin müdafiə xəttini yardı. Nəticədə 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhəri və rayonun böyük hissəsi azad olundu. Bu uğur Azərbaycan Ordusuna strateji üstünlük qazandırdı və digər istiqamətlərdə hücumların genişlənməsinə şərait yaratdı.

Xocavənd rayonu uğrunda döyüşlər daha mürəkkəb və uzunmüddətli idi. Bu istiqamətdə əsas hədəf Hadrut qəsəbəsi və ətraf yüksəkliklər idi. Şiddətli döyüşlərdən sonra 9 oktyabr 2020-ci ildə Hadrut qəsəbəsi azad edildi. Bunun ardınca rayonun digər kəndləri də mərhələli şəkildə nəzarət altına alındı. Xocavənd istiqamətində əldə olunan uğurlar müharibənin ümumi gedişinə ciddi təsir göstərdi.

Ağdərə istiqamətində döyüşlər isə əsasən şimal cəbhəsində aparılırdı. Bu ərazi dağlıq relyefə və möhkəmləndirilmiş müdafiə xəttinə malik idi ki, bu da əməliyyatları çətinləşdirirdi. Buna baxmayaraq, Azərbaycan Ordusu bu istiqamətdə də irəliləyiş əldə edərək bir sıra strateji yüksəklikləri və yaşayış məntəqələrini azad etdi. Ağdərə istiqamətinin tam nəzarətin təmin olunması isə müharibənin sonunda imzalanmış 10 noyabr üçtərəfli bəyanatı ilə mümkün oldu.

Ağdərənin dağları, Xocavəndin bağları, Cəbrayılın geniş düzləri uzun illər səssizliyə bürünmüşdü. Bu gün həmin torpaqlara həyat yenidən qayıdır. Bərpa olunan evlər, çəkilən yollar, qurulan infrastruktur dövlətimizin iradəsi və xalqın səbrinin rəmzidir.

# Novruzu doğma yurdda qarşılayacaqlar





# Novruza az qaldı...

**Xalqımız üçün ən vacib bayramlardan olan Novruza sayılı günlər qalıb. Bayram ərəfəsində bazarlarda və marketlərdə canlanma müşahidə olunur. Ailələr bayram süfrəsini bəzəmək üçün ənənəvi nemətlərə üstünlük verirlər.**

## Novruz süfrəsi necə olmalıdır?

İnanclarımıza görə, süfrəyə düzülən nemətlər nə qədər bol, çeşidli olarsa, il bir o qədər bərəkətli olar.

Qədim zamanlarda belə bir inanc da vardı: Əgər ailə bütün lazımi nemətləri süfrəyə qoyurdusa, bu, həmin ailənin özünütəsdiqindən xəbər verirdi. Novruz bayramında süfrənin əsas özəlliyindən biri də budur ki, süfrəyə şirin yeməklər qoyulmalıdır. Şirniyyatlardan paxlava, şəkərbura, şirin qoğal, badambura və s. saymaq olar. Bundan başqa, qovurğa qovrulur, müxtəlif şərbətlər, milli ickilərə yer verilir. Adətə görə, süfrəyə "s" hərifi ilə başlayan 7 növ ərzaq qoyulur.

## Niyə belədir?

Keçmiş zamanlarda insanlar dünyanın 7 təbəqədən ibarət olduğunu hesab edirdilər. Ona görə də ildəyişmə bayramında (Novruzda) 7 cür yemək, 7 cür şirniyyat, 7 cür çərəz... (hətta özbəklər 7 cür ağac çöpünü qırıb süfrəyə qoyurlar) qoymaqla sanki süfrədə bütün kainatın kiçik modelini yaradırdılar. İnanca görə, bunu bacaran ailə, yeni ilə tamlıq, bütövlüklə keçə bilirdi. Su, süd, səməni, sünbül, sucuq, siyənək balığı, süzmə və s. bayram süfrəsinin bəzəyi olur.

Bayram süfrəsinə gözəllik verən aksessuarlardan biri olan xonça çərəzlər, şirniyyatlarla bəzənir, yumurtalar boyanır. Əvvəllər bir gecədə 300-400 yumurta boyayırdılar və uşaqlara paylayırdılar. Çünki yumurta bolluğun, bərəkətin rəmzi idi. Yumurta döyüşdürmək isə xeyrin şər üzərində qələbəsinə işarə idi.

Bayram süfrəsi bəzəyərkən diqqətli olmaq lazımdır: süfrəyə acı, şor, turş nemətlər qoyulmamalıdır. Məsələn, istiot, sirkə, soğan, sumax, sarımsaq və s. Hətta bəzi mənbələr şər qoğalının da qoyulmasını düzgün hesab etmir.

Süfrədə çörək mütləq olmalıdır. Çünki çörək bərəkətin rəmzidir. Novruz süfrəsindən heç nə atılmamalı, yeməklər sona kimi yeyilməlidir.



## Bayram süfrəsi neçəyə başa gəlir?

Bazarlarda və mağazalardakı qiymətlər göstərir ki, bu il ailələrin bayram xərci bir qədər də artacaq. Xüsusilə də Novruz süfrəsinin ayrılmaz hissəsi olan çərəzlərdə bu il bahalaşma qeydə alınıb.

Qoz - 6 manat, ləpəsi - 17-25 manat

Fındıq 7 manat, ləpəsi - 20-22 manat

Qovrulmuş fındıq ləpəsi - 23-30 manat

Badam - 14-17 azn

Badam ləpəsi - 22- 24 manat

Şabalıd - 9-12 manat

İydə - 8-7 manat

Xurma - 11-15 manat

İnnab - 8-9 manat

Qaysı - 14-15 manat

Bayram süfrəsinin hazırlanması üçün daha çox pul mal və qoyun ətinin alınmasına, eləcə də kərə yağına gedəcək.

Bayram ərəfəsində dana ətinin bir kiloqramı 17 manata, quzu ətinin bir kiloqramı 20-21 manata, kərə yağının bir kiloqramı isə 20-26 manata satılır.

Digər əsas ərzaq məhsullarının qiymətləri isə aşağıda kimidir:

Turşu xiyar 2-4 manat

Kartof 0,8 qəpik -1-2 manat

Toyuq filesi 4-5 manat

Xama 1-2 manat

## Bayram süfrəsi neçəyə başa gəlir?

Mayonez 2-6 manat

Təzə xiyar 3-3,5 manat

Pomidor 3-3,5 manat

Göyərtilər (1 dəstə) 0,25 manat

Un 1,5 manat

Şokolad 12-22 manat

Balıq 14-20 manat

Düyü 4-5 manat

Alma 1,5-2,5 manat

Mandarin 3-3,5 manat

Banan 3-4 manat

Bazarlarda və marketlərdə bayram xonçaları da satışdadır. Kiçik xonçalar 25 manatdan başlayır, daha böyük və zəngin tərkibli variantlar isə 200-250 manata qədər təklif olunur.

Novruz bayramının əsas simvollarından olan səmənilərin qiyməti də fərqlidir, ölçüsünə, bəzəyinə görə dəyişir.

Beli qırmızılı səməninin orta hesabla birinin qiyməti ən balacası 1 manata, ən böyüyü isə 15 manatdır.

Ümumilikdə, dörd nəfərlik bir ailənin Novruz bayramı süfrəsi üçün orta hesabla 470-500 manat xərc tələb olunur. Ötən il Novruz bayramı ərəfəsində isə bayram süfrəsinin təxmini qiyməti orta hesabla 330-350 manata başa gəlirdi.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5106**
**Sifariş: 380**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova